2023

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi

www.kitabxana.net

Mir Cəlal Paşayev adına

Milli Virtual Kitabxananın təqdimatında




YYSİB

08.02.2023

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi

www.kitabxana.net

Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təqdimatında

## "Zəfərin zirvəsi": Vətən müharibəsindəki qələbəmizin virtual-kreativ salnaməsi"

YYSİB-nin vətənpərvərlik, kreativ e-kitablar seriyası

Elektron kitab N 09 (09 - 2023)

Bu elektron nəşrlər Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin reallaşdırdığı, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın texniki-yaradıcı yardımıyla icra edilən, "Zəfərin zirvəsi": Vətən müharibəsindəki qələbəmizin virtual-kreativ salnaməsi" mövzusunda hərbi-vətənpərvərlik, kreativ layihəsi çərçivəsində hazırlanaraq yayımlanır.

Kreativ-bədii layihənin maliyyələşdirən qurum:

Azərbaycan Respublikasının Gənclər Fondu

http://youthfoundation.az

Silsiləyə daxil edilən elektron nəşrləri buradan izləyin:

https://kitabxana.net/e-library.php?cate=201

Rəsmi FB səhifəmiz:

https://www.facebook.com/kreativesger

Fəxrəddin Teyyub

# Ruhların sevinən günü

**Lənkəranlı şairin 44 günlük Zəfər haqqında poetik toplusu**

**Elektron kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb**

**YYSİB və Milli Virtual-Elektron Kitabxananın e-nəşri - 2023**

**Virtual redaktoru və e-nəşrə hazırlayanı:**

**Aydın Xan Əbilov, yazıçı-kulturoloq, Prezident təqaüdçüsü**

**DİQQƏT!**

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

# *"Zəfərin zirvəsi": Vətən müharibəsindəki qələbəmizin virtual-kreativ salnaməsi"*

## ***AGF ilə Yeni Yazarlar və Sənətçilər İB-nin kreativ layihəsi***

Azərbaycan Respublikasının Gənclər Fondunun 16-cı Qrant Müsabiqəsi çərçivəsində maliyyələşdirdiyi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi tərəfindən üç ay 20 dekabr 2022 – 20 mart 2023-cü il tarixlərində reallaşdırılacaq "Zəfərin zirvəsi": Vətən müharibəsindəki qələbəmizin virtual-kreativ salnaməsi" layihəsi həyata keçirilməyə başlayıb. "Gənclər arasında milli mənəvi dəyərlərin, ailə dəyərlərinin, əxlaq və etika normalarının təbliği" istiqaməti üzrə keçirilməsinə başlanılan fəliyyətlər haqqında YYSİB sədri, layihə rəhbəri Aydın Xan Əbilov geniş məlumatları media üçün açıqlayıb.

"Zəfərin zirvəsi": Vətən müharibəsindəki qələbəmizin virtual-kreativ salnaməsi" kulturoloji-innovativ layihəsinin əsas məqsədi, adından da göründüyü kimi, II Qarabağ müharibəsindəki möhtəşəm qələbəmizin İKT alətlərindən, yeni imkanlarından yararlanaraq kreativ innovasiyalar və kulturoloji formatlarda yeni nəsil nümayəndələrinə, indiki və gələcək nəsillərə çatdırmaqdır. Layihə həm real, həm də milli İnternet resurslarını, Qlobal İnformasiya məkanında anadilli kontentlərini zənginləşdirməklə, yazılı və audio-vizual formatlarda yeni məhsullar ortaya qoymaqla, gənclər arasında milli-mənəvi dəyərlərin populyarlaşmasına səbəb olacaq, qazi və şəhid ailələrin nümayəndələrinə sayğı və sevgini yüksəltməyə xidmət edəcək.

Layihənin əsas hədəfi Qarabağda döyüşmüş, şəhid olmuş Lənkəranlı qəhrəmanlılar, eləcə də Kamran Əliyev və Romir Əliyev simasında müharibə iştirakçıları haqqında sənədli film çəkmək, İnternet TV formatında veriliş hazırlamaq, onların geniş yayımı, sosial şəbəkələrdə tanıtımını təşkil etməkdir. Feysbukda ayrıca Virtual Resurs yaratmaq, Vətən müharibəsinə həsr olunmuş müəlliflərin əsərləri, şəhidlər haqqında yazılardan ibarət rəqəmsal kitabların hazırlanması, yayımı, Bakı və Lənkəranda 2 təqdimat mərasiminin təşkili nəzərdə tutulub. Qarabağ müharibəsi/münaqişəsi tarixi, mədəniyyəti, abidələri, savaşları haqqında,

eyni zamanda yerli yaradıcı insanlarının əsərlərindən ibarət elektron nəşrlərin hazırlanması, ayrıca mini e-kitabxana bölümünün yaradılması / yayımı, tanıtımının təşkili nəzərdə tutulub.

Layihədə gənclər, eləcə də müxtəlif yaşda, cinsdə, fərqli intellektual səviyyədə olan şəxslər – real olaraq: Bakı şəhərində və Lənkəran rayonunda yaşayanlar, şəhid və qazi ailələrinin nümayəndələri, qazilər, kənd icmasının nümayəndələri, oxucular, İnternet istifadəçiləri, yaradıcı şəxslər, müəlliflər, virtual ədəbiyyatla maraqlanan yeniyetmələr, yaradıcı-kreativ gənclər bəhrələnəcək. Virtual olaraq: İnternet və sosial şəbəkələr vasitəsilə respublikanı, eləcə də dünyada yaşayan yeni nəsil nümayəndələri – xaricdə yaşayan soydaşlarımız, gənclər və tələbələri əhatələnəcəklər. Azərbaycanda və xaricdə yaşayan məktəblilər, yeniyetmələr, gənclər, tədqiqatçılar, xüsusi qayğıya ehtiyacı olan gənclər, yaradıcılıq qabiliyyətlərinin və alternativ – məsafəli təhsil imkanlarının artırılmasına, elektron təhsil vasitəsilə çalışanlar, İnternet istifadəçiləri, kitabxanaçılar, müəllimlər və başqaları yararlana biləcək.

Təklif olunan layihənin yetərincə təbiği və ictimaiyyətə çatdırılması işi düzgün işlənmiş media-plan vasitəsilə reallaşdırılacaq. Layihənin təqdimi və təbliğinə xüsusi önəm veriləcəkdir: istər ölkə daxilində, istərsə də dünyada Azərbaycanın möhtəşəm qələbəsi, Qarabağdakı Zəfərlə bağlı həqiqətlərin tanıdılması, Lənkəranlı qəhrəmanların igidliyi, əsərlərin geniş yayılmasına səbəb olacaq. İnternet resursları, sosial mediada, ayrıca saytlarda televiziyada və mətbuatda mövzu/layihə haqqında rəylər, fikirlər, məqalələr çap olunacaq, müzakirə xarakterli reportaj və süjetlər hazırlanacaqdır. Fəaliyyətlərlə bağlı aparılan işlərin hesabatları həm yazılı və elektron KİV-də yayımlanacaq, həm də qurumun rəsmi saytında yerləşdiriləcək. Layihənin yetərincə təbiği və ictimaiyyətə çatdırılması işi düzgün işlənmiş media-plan vasitəsilə gerçəkləşdiriləcəkdir. Layihənin təqdimatına və sosial şəbəkələrdəki virtual təbliginə xüsusi önəm veriləcəkdir: istər ölkə daxilində, istərsə də dünyada Azərbaycan, Qarabağ və qəhrəmanlar haqqında yaradılan sənət nümunələrinin geniş yayılmasına səbəb olacaq. Televiziya, radio, İnternet və ölkəmizin nüfuzlu mətbu orqanlarında, yeni mediada, İnternet saytlarında, İnternet TV, Fesybuk, Tvitter, İnstagram kimi sosial şəbəkələrdə həyata keçiriləcək layihə, e-nəşrlər, elektron şəbəkə resursu – mini-kitabxana haqqında ekspert rəyləri,

fikirlər, məqalələr çap olunacaq, müzakirə xarakterli reportaj və süjetlər hazırlanacaq, ictimaiyyətin müzakirəsinə buraxılacaq.
Layihə uğurla yekunlaşdırılandan sonra da fəaliyyətlər davam etdirilərək aşağıdakı istiqamətdə işlər həyata keçiriləcək. Davamlı olaraq Qarabağ qəhrəmanlarının tanıtımı istiqamətində İnternetüstü, müxtəlif formalarda fəaliyyətlər daha da genişləndiriləcək və ardıcıl işlər görüləcək. Yaradılacaq sosial şəbəkə resurslarında yenə də bu mövzuda müxtəlif materiallar paylaşılacaq. İnternetdə, elektron kitabxanada, sosial mediada, sosial şəbəkələrdə yeni formatlarda, vətənpərvərlik mövzusunda elektron kitablar, rəqəmsal nəşrlər, eləcə də yeni kreativ materiallar onlayn-oflayn yayımlanacaq, daimi fəaliyyət göstəriləcəkdir. Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş çəxslər haqqında hazırlanacaq elektron kitablardan ibarət virtual sərgi ardıcıl təşkil olunacaqdır. Mütəxəssislər tərəfindən bu layihənin həm peşəkar dairələri, həm geniş ictimaiyyət tərəfdən müzakirəsi, mətbuatda işıqlandırılmasına şərait yaradılacaq. Gələcəkdə milli-mənəvi dəyərlər və hərbi-vətənpərvərlik ədəbiyyatının müxtəlif istiqamətlərinə aid elektron kitabxanalar, eləcə də şəbəkə nəşrlərini özündə birləşdirəcək resurslar yaradılacaq. Milli Virtual Kitabxana daha da genişləndiriləcək, eyni zamanda ölkəmizin daxilində və xaricdəki anoloji İnternet kitabxanaların şəbəkəsinə qoşulması, qarşılıqlı-faydalı əməkdaşlığa xüsusi əhəmiyyət veriləcəkdir. Layihənin növbəti mərhələsi hazırlanaraq donor təşkilatlara təqdim olunacaq.

Ayxan – Hidayət Əbilli,
*Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin*
*sədr müavini, yazar-bloqqer*

# FƏXRƏDDİN TEYYUB

# RUHLARIN SEVİNƏN GÜNÜ

**Poetik toplu**

# MÜƏLLİFDƏN

Əziz və hörmətli oxucu!

Səninlə görüşümü səbrsizliklə gözləyirdim. Kitabıma "Ön söz" yazdırmaq üçün heç kəsə əziyyət vermək istəmədim. Belə qənaətə gəldim ki, səninlə birbaşa təmasda olum. Bu kitab sayca dördüncü kitabımdır. Kitabın mayasını, ruhunu ana həsrəti, vətən, torpaq sevgisi, etibar, sədaqət, dost itkisi və təbiətə vurğunluq təşkil edir. 70-ci illərin əvvəllərində, dövri mətbuatda ara-sıra şeirlərim çap olunurdu. O vaxt "Azərbaycan", "Ulduz" jurnallarında, "Ədəbiyyat və incəsənət" qəzetində çap olunmaq ədəbi hadisə idi. Sözə, şeirə ciddi münasibətin olmağı, qələm adamlarını məsuliyyətli olmağa sövq edirdi. Şeir şeir olmalıydı. Mükəmməl və möhtəşəm! Redaksiyaların qapılarını döyməkdən xoşum gəlmirdi. "Ulduz" jurnalında məsul katib işləyən mərhum Əhəd Muxtar bir neçə dəfə şeirlərimi jurnalda çap eləmişdi. Mənim uğurlarıma sevinirdi. Tənbəl və utancaq olmağıma görə həmişə məni danlayardı. Hətta növbəti şeir kitabını mənə hədiyyə edəndə, avtoqrafla "Dünyanın ən tənbəl şairi Fəxrəddin Teyyuba, şer kitabını görmək arzusu ilə" sözlərini yazmışdı. Təəssüflər olsun ki, Əhəd Muxtarın arzusu ürəyində qaldı. Kitabımı görmədi. Nə qədər günahkaram, onu Allah bilir. Yəqin ruhu bağışlayar məni.

Əziz oxucu! Bəlkə də ürəyindən bir sual keçir: mən niyə şeir yazıram? Bu suala birmənalı cavab vermək çox çətindi. Yadıma gəlir, anamı qəribə suallarla hər gün yorurdum.

Təmkinlə suallarıma cavab verməyə çalışırdı. Məsələn, anamdan soruşurdum ki, Günəşlə Ay bacı-qardaşdı? Cavabı məni tam qane etməyəndə, ikinci sual özünü çox da gözlətmirdi. Bəs onlar niyə görüşmürlər? Qaranlığın düşməsi, səhərin açılması, kəndimizin ortasından axan çayın qəfildən quruması, göydən tökülən aramsız yağışlar, yeri-göyü lərzəyə gətirən şimşəyin çaxması... bütün bunlara cavab istəyirdim.

Anam payızı çox sevərdi. Fəsillərlə bağlı suallarıma özünəməxsus tərzdə cavab verərdi: "Payız düşəndə, bala, bax, mən payıza oxşayıram, atanız qışa. Sən də, qardaşların da, bacın da təravətli baharsınız".

Bir gün əhvalının yaxşı vaxtında soruşdum:

– Ana söz böyükdü, yoxsa insan?

– Əlbəttə, söz böyükdü, - deyə müdrikcəsinə fikrə daldı.

Çox sonralar, nəsrimizin günəşi Seyran Səxavətin dilindən "Bütün qələm adamları sözün belindən dünyaya gəlib" kəlməsini eşidəndə, alim, filosof anamı şükranlıqla xatırladım. Ruhuna dualar oxudum. Bir daha onun böyüklüyünü dərk elədim.

Əziz oxucu! Səni yormaq istəmirəm. Körpə nəfəsi kimi təzə-tər kitabım sənə əmanət və ərməğan olsun. Misralarımdan ruhumun boylandığını görəcəksən. Sözə təşnə olan ürəyimin çırpıntılarını eşidəcəksən. Yetər ki, oxuyasan. Görüşmək arzusu ilə. Allah amanında.

www.kitabxana.net

# ALİ BAŞ KOMANDAN, VAR OL, MİN YAŞA!

Sən göyün oğlusan, sən yerin oğlu,
Xoş xəbər gətirən səhərin oğlu.
Sınmaz Ulu Öndər Heydərin oğlu,
Ali Baş Komandan, var ol, min yaşa!

Qalmasın bu döyüş, bu cəng yarıda,
Bədxahlar boylanır, baxır barıdan.
Vətən savaşını sevir Tanrı da,
Ali Baş Komandan, var ol, min yaşa!

Nikolu sürüyüb, yıxmağın aləm,
Tutub boğazından sıxmağın aləm.
Müjdəylə ekrana çıxmağın aləm,
Ali Baş Komandan, var ol, min yaşa!

Əsgərə dedin ki, vur-vur düşməni,
Tufan ol, külək ol, sovur düşməni.
İti qovan kimi qovur düşməni,
Ali Baş Komandan, var ol, min yaşa!

Haqqın üstündədir bünövrə, təməl,
Tarixdi gördüyün hər iş, hər əməl.
İndi bir zindana vurur milyon əl,
Ali Baş Komandan, var ol, min yaşa!

Xalqınla bölüşdün dərdi-sərini,
Sözün itirməsin öz kəsərini.
Yazdın Qarabağda şah əsərini,
Ali Baş Komandan, var ol, min yaşa!

İnamım, güvəncim, hər an ərkimsən,
Döyüş meydanında dizi bərkimsən.
Heç vaxt yenilməyən Ulu Türkümsən,
Ali Baş Komandan, var ol, min yaşa!

Nərsən, kim deyər ki, nər axtarıram,
Pirsən, heç kəs deməz pir axtarıram.
Sənin heykəlinə yer axtarıram,
Ali Baş Komandan, var ol, min yaşa!

www.kitabxana.net

## MƏN ANAM TƏRƏFDƏN GƏLƏN ŞAİRƏM

Dünyaya gələndə güllü yazıydı,
Təbiət gülürdü, işvə, nazıydı.
Atamın tərəfi uyuşmazıydı,
Mən anam tərəfdən gələn şairəm.

Bəxtəvər bildiyim yoluma çıxdı,
Ürəyim tərəfə - soluma çıxdı.
Mənim dərdlərimin damı açıqdı,
Ağlaya-ağlaya gülən şairəm.

Yandırmır adamı bəzən od, axı,
Söz gərək yandıra dili, dodağı.
Şeir ağacımın misra budağı
Qırılsa, ürəkdə ölən şairəm.

Mənim öz yolum var, demə sür ordan,
Tanrıya yaxınam, gəlir nur ordan.
Hələ deməyiblər mənə “dur” ordan,
Əzəldən yerimi bilən şairəm.

22.04.2021

## RUHLARIN SEVİNƏN GÜNÜDÜ BU GÜN

Ana, gözün aydın, şad xəbərim var,
Daha qarlı qış da bahardı bizə.
Qəhrəman oğullar, igid oğullar
Aldı Qarabağı, qaytardı bizə.

Qismətdən, taledən bəzən küsdün də,
Səhərlər su verdin arzu tağına.
Dua eləyərdin namaz üstündə
Bu ana vətənin tam olmağına.

Açılıb ürəyi çölün, düzün də,
Hər yanı şirindi, pətək balıdı.
Günəş gülümsəyir göyün üzündə,
Bu gün "Xarıbülbül" festivalıdı.

Şükür, ümid açdı axır gözünü,
Qələbə çələngin tutub əlində.
"Nənələr" bəzədi Cıdır düzünü,
Nəğmə oxudular sənin dilində.

Hər əsgər keçilməz dağ aşır indi,
Tapdı öz yerini qara da, ağ da.
Ruhun Qarabağda dolaşır indi,

Ruhun namaz qılır "Gövhər ağa"da.

Göydən nur yağacaq ev-eşiyinə,
Ruhların sevinən günüdü bu gün.
Zəng edib demişəm sonbeşiyinə,
Gələr məzarına muştuluq üçün.

## SÜKUT

Yola salıb neçə cığır, iz məni,
Təbim qaynar, dəmə çəkib söz məni.
Axtarmayın, aramayın siz məni,
İstəyirəm bir mən olum, bir sükut.

Çox almışam salam kimi dərdimi,
Ucaltmışam qalam kimi dərdimi.
Qarşıladım balam kimi dərdimi,
İstəyirəm bir mən olum, bir sükut.

Ömrün-günün hesabı var sükutda.
Neçə vicdan əzabı var sükutda.
Hər sualın cavabı var sükutda,
İstəyirəm bir mən olum, bir sükut.

Bəd söz deməz, desə, dilim qurusun,
Öz evini Tanrı özü qorusun.
Üzü dönsün bu koronavirusun,
İstəyirəm bir mən olum, bir sükut.

Səhvim varsa, desin mənə üç adam,
Doğmasından inciyərmi heç adam?

Mən yol kəsən deyiləm ki, keç, adam,
İstəyirəm bir mən olum, bir sükut.

Kimdi səni salan yada, yetmişim?
Qismətə bax, düşdü oda yetmişim.
Axır gəlib çatdı, bu da yetmişim,
İstəyirəm bir mən olum, bir sükut.

# PAYIZIN YAŞI

*Görən bu payızın yaşı neçədi?*
**Musa Yaqub**

Oxşayım saçını uşaq sayağı,
Qoy mənim dizimə başını, payız.
Soruşsan, xanımlar gizlədir axı,
Sən də gizlədirsən yaşını, payız.

Çıxdım pişvazına eynəyi sarı,
Süfrəmə bərəkət, ruzu, var alım.
Bezdim adilikdən, köynəyi sarı,
Bəlkə sənə təzə bir paltar alım?!

Hər kəsə Tanrıdan paydır ömür-gün,
Sənə ürəyimdə yer də ayırdım.
Yayın bürküsündən qurtulmaq üçün
Bilsən, səni necə arzulayırdım?!

Səxavət əlindən su içir hamı,
Quşun dimdiyindən düşən dənimsən.
Mehdən də uçular sevincin damı,
Mənə darıxmağı öyrədənimsən.

Demədin yaşını Musa Yaquba,
Səndən bu dünyadan küsülü getdi.
Sözün Günəşiydi, endi qüruba,
Əlləri əlindən üzülüb getdi.

27.09.2021

## QƏFİL YAXALAYIR SEVGİ ADAMI

Vüsalın köynəyin geyim, görəsən?
Eşqim çiçək açsın, bəhər gətirsin.
Mən hansı mələyə deyim görəsən,
Sənin ürəyindən xəbər gətirsin?

Desin naz eyləyir, qadındı axı,
Desin qəm eləmə, sənə meyli var.
Qəlbimdə, dilimdə adındı axı,
Həsrətin göynədir məni xeyli var.

Nəyi düz demirəm, de, düz demirsən,
Ürəyin tacıdı sevginin cəmi.
Mən axı bilmirəm, bir söz demirsən,
Sənə vurulmağım ürəyincəmi?

Başıma bir sevda havası düşər,
Bu ahıl çağımda oynayım indi?
"Olar"la "olmaz"ın davası düşər,
Ürəyə "sus" demək necə çətindi.

Bir ömür sevgimə baş əyəcəyəm,
Tanrı bir eyləyir iki adamı.

www.kitabxana.net

Könül, bir də demə sevməyəcəyəm,
Qəfil yaxalayır sevgi adamı.

## TƏBİN KÖLGƏSİ

*Xalq şairi Musa Yaqubun əziz xatirəsinə*

Oğlum "budur dedi dünyanın işi",
Bu gün səhər çağı, sökülləndə dan,
Qəlbində heykəli ucalan kişi,
Şair Musa Yaqub köçdü dünyadan.

Həsrətin ocağı könlüm başında,
Saralan bağçamı, solan çiçəkmi?
Görən bu dünyanın qara daşında
Ruhun çiçək kimi göyərəcəkmi?

Sevmirəm dünyanın hər işini, yox,
Dərdin üzü bozdu, hər səhər gəlir.
Sevinc qatarının sərnişini yox,
Bəd xəbər dalınca bəd xəbər gəlir.

Külək qamçıladı son baharını,
Qızılgül dərilməz, kolda qalacaq.
Kim silər vələsin göz yaşlarını,
Çinarın gözləri yolda qalacaq.

Alça saçın yolur, barı pərişan,
Bilmirəm ürəyi açılar haçan?
Butanın üstündə arı pərişan,
Bəs balı pətəyə kim aparacaq?

Məndən demirəm ki, bir dilək istə,
Qəbrinə gül səpim, gülə batasan.
Necə ağı deyim məzarın üstə,
Bəlkə laylay çalım, bir az yatasan.

Ələ qələm almaq mənə ar gələr,
Misram qaçaq düşər, yerində olmaz.
Dünyaya hələ çox Musalar gələr,
Təbinin kölgəsi birində olmaz.

**DARIXMAQ**

Kədər toxumunu necə əkim mən?
Deyirdim bu günüm bəlkə ağ gəldi.
Uşaqlar şəhərdə, bağda təkəm mən,
Qəlbimə qəribə darıxmaq gəldi.

Bir az gül-çiçəklə danışdım səhər,
Elə bil qırılan qoşa qanaddı.
Mənim xəyalımın gəzdiyi yerlər.
Necə də ögeydi, necə də yaddı.

Kimsə yox yanımda danışa, dinə,
Deyə "qov başından dumanı, çəni".
Baxdım bu dünyanın boz sifətinə,
Soyuq baxışları üşütdü məni.

Hər uğur səninki olsa bayramdı,
Yarı sənə çatır, yarı özgəyə.
Əkdiyin ağacın əlində ramdı
Bəzən qismət olur barı özgəyə.

Niyə doğmalardan uzağam, dedim,
Arzumun yarpağı solmamışdı heç.

www.kitabxana.net

İlk dəfə özümə “yazığam” dedim,
Mən belə ümidsiz olmamışdım heç.

## YOLUNDA

Bilməmişəm ürəyimin qədrini,
Xərcləmişəm gedənimin yolunda.
Qalamışam ocağını vədəsiz
Ölənimin, itənimin yolunda.

İçimdədir bu göy, bu yer, ərz deyir,
Çörək tapmaz hər inadkar, tərs deyir.
Sədaqətdən gecə-gündüz dərs deyir,
Taleyimdə bitənimin yolunda.

Gözündəki yaşı gilə-gilədi,
Meyli bağda ağacadı, gülədi.
Azadlığı əldən gedən kölədi,
Əsir düşüb bədənimin yolunda.

Gah acı, gah şirin ömür sürüb o,
Ölüm-itim, qan-qada da görüb o.
Öz borcunu səngərində verib o,
Şama dönüb Vətənimin yolunda.

www.kitabxana.net

# GECƏ NAĞILI

Ay göyün üzündə ocaqdı, oddu,
Salar işığını dağlar belinə.
Zirvə elə bil ki, Dədə Qorquddu,
Şəlalə kəmərin bağlar belinə.

Yamaclar, təpələr nur sandığıdı,
Arzumun tacıdı qalxdığım yoxuş.
Dərələr dağların sirr sandığıdı,
Baharın yaşını çəməndən soruş.

Bulağın açılan gözünə bir bax,
Kirimək bilməsin qoy ağlayan sel.
Dalğalar yol açır kötükdən qabaq
Sükutun səsidir bu çağlayan sel.

Ucları nizətək göyləri dələr,
Qayalar min ildi yaraşığında.
Ürəyin açılar, ruhun dincələr,
Dağları seyr elə Ay işığında.

# SƏHV

Ürəyim sızlayır, gözüm yaş tökür,
Nə vaxtdı nə göyün, nə də yerinəm.
Bir gözüm Arazdı, o biri də Kür,
Həsrət körpüsüyəm, Xudafərinəm.

Yazı hara qoyum, neynim yayımı?
Hələ ki, həsrətin qarı burdadı.
Mən bütöv görmədim ömür payımı,
Ürək yarı orda, yarı burdadı.

Silinməz heç kəsin həsrət yaddaşı,
Göynəyən yaramı sarımır Araz.
Suyuna qarışıb gözümün yaşı,
Bəlkə ona görə qurumur Araz?!

Çayın da dərdi var, yarası dərin,
Hönkürən dalğalar nə zillət çəkir.
Bir vaxt “mənəm” deyən müştəbehlərin
Səhvinin yükünü bir millət çəkir.

www.kitabxana.net

# İYİRMİNCİ İL

Bircə xoş gününü öyə bilmərəm,
Tanrım, heç kəs deməz pozma bu ili.
Neynim, özgəsinə deyə bilmərəm
Sən mənim ömrümə yazma bu ili.

Neçə mərd igidin ömrünü kəsən,
Özünlə nə qədər qınaq gətirdin.
Koronavirusu gətirəndə sən
Bilmədin üzlü bir qonaq gətirdin?

Sükut at oynadır, nə səmir, nə səs,
Canın hara qoysun, neyləsin adam?
Dünən telefonda danışdığın kəs
Səhər eşidirsən köçüb dünyadan.

Bələndi kədərə, qəmə ömür-gün,
Bağrımın başını teylədin, ilim.
Sən mənim yadımda qalmamaq üçün
Əlindən gələni eylədin, ilim.

Vurduğun yaralar sağalan deyil,
Neçə yol belimi, qəddimi əydin.
Sənlə barışmazdım, iyirminci il,
Bizə qələbəni gətirməsəydin.

www.kitabxana.net

## ÇAĞIRIB APARIN CƏBHƏYƏ MƏNİ

Göstərib yağıya əsgər yerini,
Axır ki, silaha sarıldı, Şükür.
Ali Baş Komandan verdi əmrini,
Neçə düşmən bağrı yarıldı, Şükür.

Var-dövlət duyğusu qəlbimə axmır,
Gözlərim qamaşmaz inci görəndə.
Ürəyim sevincdən sinəmə sığmır,
Döyüşə yollanan gənci görəndə.

Düşmənin arzusu gözündə sönüb,
Aparar sonadək hər mərd savaşı.
Hamının qəlbində bayrama dönüb
Bu Vətən savaşı, bu yurd savaşı.

Güllləni yağıya sıxan adamam,
Qovmuşam yolumdan dumanı, çəni.
Mən oddan, alovdan çıxan adamam,
Görmüşəm qırğını, müharibəni.

Sözümü hər yerdə deyən diləm mən,
Bitməz yad kəlməsi dilimin üstə.

Quş kimi azadam, müstəqiləm mən,
Kimdi əlin qoyan əlimin üstə.

Yenə ön sırada, yenə başdayam,
Oğul istəyirəm bir əyə məni.
Nə olsun yaşlıyam, ahıl yaşdayam,
Çağırıb aparın cəbhəyə məni.

Şəhid anasının göydədir ahı,
Yaraşmır heç kəsə gülmək, ey Vətən!
Səslər hər igidi Tanrı dərgahı,
Şərəfdir səngərdə ölmək, ey Vətən!

Qələbə boylanır bayrağımızdan,
Əsgərin qoluna güc, təpər gəlir.
Yağılar qovulur torpağımızdan,
Şad xəbər dalınca şad xəbər gəlir.

Yer yox nə şöhrətə, nə də ki ada,
Qarabağ məlhəmi ürəyin, canın.
Heykəli qoyular, kimsə Şuşada
Sancsa bayrağını Azərbaycanın.

## KAŞ Kİ, ARANIZDA MƏN DƏ OLAYDIM

Ucaldı Vətənin başı, deyirəm,
Sevindi qayası, daşı, deyirəm.
Qurumaz gözümün yaşı, deyirəm,
İki min yeddi yüz səksən üç şəhid.

Bu payız odlandı neçə tər sinə,
Oğulsan, bu boyda dərdə gər sinə.
Adınız düşəcək tarix dərsinə,
İki min yeddi yüz səksən üç şəhid.

Düşmənə dağ çəkib, ram eylədiniz,
Ömrünüz əridi, şam eylədiniz.
Vətəni, torpağı tam eylədiniz,
İki min yeddi yüz səksən üç şəhid.

Hər kəsdən xatirə cığır var, iz var,
Bir ömür danışsam, söhbət var, söz var.
Hamının qəlbində heykəliniz var,
İki min yeddi yüz səksən üç şəhid.

Solmasın qoy vətən bağı deyərdi,
Alacaq payını yağı, deyərdi.

Anam sağ olsaydı, ağı deyərdi,
İki min yeddi yüz səksən üç şəhid.

Səngərdə duraydım, öndə olaydım,
Dərəyə düşəydim, çəndə olaydım.
Kaş ki, aranızda mən də olaydım,
İki min yeddi yüz səksən üç şəhid.

www.kitabxana.net

## MƏN BİLİRƏM

Kimdi ürəyimi açan, güldürən?
Görən yox, qəlbimin yarası dərin.
Ayrılıq nədir ki, adam öldürə,
Məni öldürəcək xatirələrin.

Daha nə alovam, nə də ki odam,
Ümid zəmisini biçə bilmirəm.
Nə qədər yolunu dəyişər adam?
Sən keçən yerlərdən keçə bilmirəm.

Sevinc köynəyini harda geyim mən?
Taleyin işidi, gərək barışım.
Dilim gəlmir sənə heyif, deyim mən,
Tanrının işinə necə qarışım?

Gözümdən alıbdır yaş, aldığını,
Sızlayan ürəyim yağış, qar bilməz.
Sənsiz bu dünyanın boşaldığını
Bircə mən bilirəm, doğmalar bilməz.

## AĞACLAR

Tutun yarpağından öpüb gedirəm,
Yaşıl xatirədir ömrün hər günü.
Səhər gözlərimə təpib gedirəm
Titrəyən yarpağın təbəssümünü.

Üstünüz, başınız bəyaz qar kimi,
Gülür gözləriniz sizi öyəndə.
Küçədə döyülən uşaqlar kimi,
Gəlməyin üstümə külək döyəndə.

Bağımda gəzəndə darıxmıram mən,
Ağaclar dostumdu, var həmsöhbətim.
Hər biri oxuyur məni gözümdən,
Heyva "dayan" deyir, nar həmsöhbətim.

Baxıram, necə də təzə-tərdilər,
Bəhəri sallanan budaq arzudu.
Yoxdu tamahları, bəxtəvərdilər,
Məndən istəkləri varsa da, sudu.

## PƏNCƏRƏMDƏN BAXIRAM

Sükut içindədir qəmli gecələr,
Nə olsun işıqdan hər tərəf ağdı.
Adama tamarzı, həsrət küçələr
Elə bil anası ölmüş uşaqdı.

Pozulub min sevgi müqaviləsi,
Adamsız solubdur bağçalar, bağlar.
Gözləyir yolunu hər sevən kəsin,
Məhəbbət qoxulu oturacaqlar.

Bu qəfil ayrılıq qəddimi əyib,
Necə doğma imiş hər künc-bucağın.
Səhərlər nəfəsin üzümə dəyib,
Səkilər, küçələr ana qucağı.

Gözə gətirdilər səni, şəhərim,
Kədərli gözlərin mənə dərd olub.
Xoş xəbər gətirsən, de ki, səhərim,
Koronavirusdan dünya qurtulub.

Gördüm bu günü də, ölmədim, Bakı,
Səninlə görüşmək necə çətindi.

Ovcumda qədrini bilmədim, Bakı,
Sənə pəncərəmdən baxıram indi.

## MƏN GÖYÜN ÜZÜNDƏ OLAYDIM, GƏRƏK

Bal dadır anamı gördüyüm yuxu,
Ömrümün ən şirin anıdır mənə.
Sən demə, özümü izləyir çoxu,
Məni özgələri tanıdır mənə.

Əyriyə, yalana düz demirəm ki,
Ürəyim süfrədi, çöləm, bayıram.
Şer yazmıram ki, söz demirəm ki,
Torpaq belləyirəm, yer şumlayıram.

Demirəm qazancın cəmi mənimdir,
Əlimə keçəni bölüb gedirəm.
Elə bil kədəri, qəmi mənimdir,
Şəhid atasıyla ölüb gedirəm.

Mən göyün üzündə olaydım gərək,
Bəzən boğur məni qəhər, yerdəyəm.
Bəlkə təyyarədir sinəmdə ürək,
Gecələr göydəyəm, gündüz yerdəyəm.

Ağacım, başına sığal çəkmişəm,
Zəhmətim olmasa, bar vermə mənə.

Özüm öz yaxama qarğış tökmüşəm,
Demişəm, ilahi, var vermə mənə.

Tanrının qəlbini oxumaq çətin,
Bilir hansı dağa yağdırır qarı.
Kisəsi boş qalar bir məmləkətin
Olsa mənim kmi xəzinədarı.

## MƏZUNİYYƏT

Zəng edib kimisə dəng eləmirəm,
Gileyli misrayla doludu masam.
Daha doğmalara zəng eləmirəm,
Məni axtaran kim, mən axtarmasam.

Gərəkli günlərim qaldı arxada,
Sevinci sevincə qatardı hamı.
Olsaydı bir medal, orden yaxada
Mənim kandarımda yatardı hamı.

Dostun dar günündə qəmə batıram,
Vermişəm ömrümü xoş ünsiyyətə.
Özüm öz əmrimə imza atmışam,
Çıxmışam özümdən məzuniyyətə.

# DEDİM QƏM ELƏMƏ

Dedin ki, ilhamım sözümə baxmır,
Qələmim korşalıb, yaza bilmirəm.
Təbimin göyündə ildırım çaxmır,
Qəzadı, ya da bu cəza, bilmirəm.

Quşa göy gərəkdi, qanad çalmağa,
Ağrıdır adamı xəstə yerişi.
Qarışqa vaxt tapmır nəfəs almağa,
Şeirdi böcəyin asta yerişi.

Meh nədi, əsəndə əs külək kimi,
Qoşul göydən yağan yağışa, ağla.
Durna qatarından düş lələk kimi,
Duyğular payıza qarışa, ağla.

Hardadı ünvanı görən sükutun?
Hər yanan ulduzdan hikmət, sirr soruş.
Yapış yaxasından göydə buludun,
Niyə kölgə salır Aya, bir soruş.

Şillədən betərdi sözün hədəsi,
Gördüm ki, tər tökür, boğulur dostum.

www.kitabxana.net

Dedim qəm eləmə, çatar vədəsi,
Şeir yazılmır ki, doğulur, dostum.

## TANRIM, ƏLİM QALSIN QOY ƏTƏYİNDƏ

Dağ çayı dənizə axır, sevinir,
Sevinir dənizin dolmamağına.
Böcək qarışqaya baxır, sevinir,
Sevinir, qarışqa olmamağına.

Ruhumu özünlə aparan külək!
Qatdım göz yaşımı şehin gözünə.
Ağacı kökündən qoparan külək,
Utanır baxmağa mehin gözünə.

Ömürdən sonra da yenə ömür var,
Çıxır başından da tüstün, min ildi.
Üşüməsin deyə, göydə buludlar,
Örtür ulduzların üstün, min ildi.

Ehtiyac qoyur ki, adam bir gülsün?
Axı kim çuvalın dolu istəmir?
Deyirəm Günəşin anası ölsün,
İşığın verəndə pulun istəmir.

Saxlayıb sirrimi neçə daş, divar,
Səhvim bir ümmandı, görünməsə də.
İnsanın ilandan bircə fərqi var:

Dilində zəhəri, görünməsə də.

İlahi, neylərəm mehrin azalsa?
Mənə çatan ruzu, pay ətəyində.
Acından ölərəm, bəndəyə qalsa,
Tanrım, əlim qalsın qoy ətəyində.

09.11.2021

**ALVER**

Hərənin bir yerdən çıxır çörəyi,
Ümidim arzumla yola gedərmi?
Neynirəm sinəmdə köhnə ürəyi?
Hərraca çıxarsam, pula gedərmi?

Üstündə eybini yazaram, kövrək,
Baxanlar xəyala dalacaq elə.
Axı kimə gərək bu yorğun ürək?
Alan təzəsini alacaq elə.

Demirəm bir kimsə oduma düşdü,
Hər kəs öz işində, öz güzarında.
Atamın bir sözü yadıma düşdü,
Adam ucuz olur can bazarında.

## BU MƏN DEYİLƏM

Səhər duran kimi güzgüyə baxdım,
Xoşuma gəlmədim, bu mən deyiləm.
Görmədim çiynimdə qanadlarımı,
Nə vaxtdı qırılıb, həmən deyiləm.

Mətləbi qanıram başıma görə,
Necə də dünyanı qarışdırdılar.
Cəzamı almışam yaşıma görə,
Məni taleyimlə barışdırdılar.

Göylər ki, səxavət çuvalı deyil,
Payına nə düşüb kimin, bəsidi.
Sinif otağıdı dünya elə bil,
Hamının keçdiyi Tanrı dərsidi.

Başımın üstünü alıb duman, çən,
Axı haçanacan evimdə qalım?
Bəlkə şagird kimi əl qaldırım mən,
Koronavirusdan icazə alım?!

# MƏN ELƏ BİLİRDİM ÇİYNİM VƏTƏNDİ

*Xalq yazıçısı İsmayıl Şıxlıya*

Əzəldən bu dünya bir boş, yalan yer,
Qalan var deyil ki, yaxşı addı, ad.
Deyirlər ki, dolur hər boşalan yer,
Mən sənin yerini boş gördüm, ustad.

Qəmli günlərini görən olmadı,
Bir ömür səbrinə bürünən adam!
Dünyanın malında gözün qalmadı,
Ruhunun abrına bürünən adam.

Çalır havasını hərə bir cürə,
Elə bil nağara, qavaldı dünya.
Bir gün oxuyanda "Ölən dünyam"ı,
Bildim ki, içi boş çuvaldı dünya.

Dünyadan bir dünya köçdü, ay aman,
Onsuz da itirən neynim, vətəndi.
Mən səni çiynimdə aparan zaman
Elə bilirdim ki, çiynim vətəndi.

25.05.2018

## BU ZOĞ O GÜLÜN QIZIDI

Nərgiz baxır yetim-yetim,
Qalan qalıb, itən itib.
Gül dibində bir zoğ bitib,
Bu zoğ o gülün qızıdı.

Ayın, Günün xanası var,
Buludlardan cunası var.
Sözün də öz anası var,
Ağızda dilin qızıdı.

Dağ çayının ötürdüyü
Kolda-kosda götürdüyü,
Dərələrin gətirdiyi
Nə varsa, selin qızıdı.

Əsən külək göy səsidi,
Göyün yerə tənəsidi.
Zəmi ruzu təknəsidi,
Saçaq sünbülün qızıdı.

Mismarın da gərəyi var,
Evin varsa, dirəyi var.

Çuval-çuval çörəyi var,
Dəyirman elin qızıdı.

22.04.2019

## BACIM, HARDASAN?

*Fərqanə Mehdiyevanın əziz xatirəsinə*

Sən yoxsan, de görüm, kimə deyim dağ?
Məni ayrılığın neştəri kəsdi.
Necə də uçuldu söykəndiyim dağ,
Mən hələ istiyəm, mən hələ isti.

Ürəyim ağrıdı ağrı-acına,
Yıxıldı dostluğun dayağı, dedim.
Ağladım, söykənib tut ağacına,
Sənin yoxluğuna bir ağı dedim.

Mən özgə əlləri sıxa bilmərəm,
Taleyim qarşıma yetirə kimi.
Nömrən göz dağıdı, yığa bilmərəm,
Qalacaq bir ömür xatirə kimi.

# ÜNVANLI ŞEİR

Axı saf qəlbimi niyə görmədin?
İşim əzəl gündən çıxıbdır daşdan.
Nə yaxşı zəngimə cavab vermədin,
Qoy bilim işimi, elə bu başdan.

Yol alıb gedirəm ömrün qışına,
Necə ürəyimin həvəsi olsun?
Nahaq çıxdım bacı axtarışına,
Çətin Fərqanənin əvəzi olsun.

Könlümə yatanı gözüm bilirəm,
Duyğusuz, qəlbimə yaman deyəcək.
Mən nəyi qazandım, özüm bilirəm,
Sən nəyi itirdin, zaman deyəcək.

20.05.2019

## HƏKİMLƏ SÖHBƏT

Nəbzimi yoxladıın, güldü gözlərin,
Dedin ki, nə gözəl bir ürəyin var.
Ruhumu oxşadı bu xoş sözlərin,
Gəncliyə apardı məni duyğular.

Qəlbimi coşduran, dilə gətirən
Nənəmin çaldığı laylalarıdır.
Döyünür sinəmdə yaxşılıq ilə
Ürəyim anamın yadigarıdır.

Qış dəymədüşərdir, bahar ağıllı,
Ümidin bağında xəzəl olmasın.
Nə həsəd tanıyır, nə də paxıllıq,
Həkim, ürək necə gözəl olmasın?!

## BALAM

Aşıb-daşan sərvəti yox küləyin,
İnsafı yox, mürvəti yox küləyin.
Görürsən ki, hörməti yox küləyin,
Xəfif əsən mehə qoşul, yel balam.

Dözdüm ömrün şaxtasına, qışına,
Duman olub yazda döndüm qoşuna.
Ağac çəkir sığalını başına,
Kötüyünü çıxarırsan, sel balam.

Sən çiynində elə bil daş daşıdın,
Ətrin, qoxun bu dünyanın yaşıdı.
Şaxta ömrü, boran ömrü yaşadın,
Qönçə balam, çiçək balam, gül balam.

Dostu, yadı qaralama, amandı,
Tama dəymə, paralama, amandı.
Ürəkləri yaralama, amandı,
Söz deyəndə yerində de, dil balam.

25.03.2020

www.kitabxana.net

## ANAM DEYƏRDİ Kİ...

Anam deyərdi ki, obaşdan durun,
Könül oxşamağa bir az tələsin.
Ürəyə dəyməyin, uzaq, yan durun,
Qayğılı kəslərin üstündə əsin.

Göyərməz nə dilək, nə də ki, arzu,
Əli bərk özünə qənimdi elə.
Göydən yağış kimi tökülsə ruzu,
Deməyin "hamısı mənimdi elə".

Bir kasıb öləndə deməyin "sağam",
Açın çörək dolu əllərinizi.
"Hansı yıxılanı qaldıracağam",
Düşünün açanda səhərinizi.

**DÜNYANIN**

Açılacaq qapıları taybatay,
Pəncərəsi çox olacaq dünyanın.
Keçib-gedər tamahların karvanı,
Gözü-könlü tox olacaq dünyanın.

Batsaq, sevinc ümmanında batarıq,
Ümid bizə laylay çalar, yatarıq.
Yola düşsə günahın son qatarı,
Dərdi-səri yox olacaq dünyanın.

Tanrı nə vaxt keçmişdi ki, belə dərs?
Üzlər şillə görmüşdü ki, belə tərs.
Savablara bürünəcək bu göy, ərz,
Vallah, üzü ağ olacaq dünyanın.

22.04.2020

www.kitabxana.net

## PAYIZ LÖVHƏSİ

Xəzəllər torpaqda yallımı gedir?
Nə vaxtdı düzəlmir havalar, yağır.
Narın yarpaqları göydə rəqs edir,
Bağçama-bağıma sarı qar yağır.

Yerə səpələyir göylər zərini,
Ağaclar torpağın gözəlləridir.
Küləklər çıxarıb əlcəklərini
Üşüyən budaqlar qız əlləridir.

Boynunu uşaqtək əyib ağaclar,
Yer göylə, göy yerlə yenə cəngdədir.
Baharda yuxular yaşıla çalar,
Payız yuxuları sarı rəngdədir.

Əsəndə, ruhumu kəsir elə bil,
Küləklər payızın neştəri kimi.
Göydə buludlara boylanır torpaq,
Gözləyir yağışı müştəri kimi.

15.09.2020

## ƏZGİL AĞACI

Yaşıl dünyam, xoş gördük,
Boyuna boyum qurban.
Tutum budaq əlindən,
Qoy öpüm, doyum, qurban.

Duruşun qız duruşu,
Ədana əda çatmaz.
Barını az eyləmə,
Özgəyə, yada çatmaz.

Barın necə şirindi,
Pətəyin balı kimi.
Bəm-bəyaz ləçəklərin
Körpə dəsmalı kimi.

Külək dəyir xətrinə,
Sən yenə də gülürsən.
Yarpaqların ruhumu
Yelpikləyir, bilirsən?

**SUAL**

Çəkib gəncliyimə qocalıq çəpər,
Ürəyim bir sual, dilim bir sual.
Əlimdə gücüm yox, dizimdə təpər,
Ayağım bir sual, əlim bir sual.

Olmasa ümidin izi yarada,
Görünməz gözünə ağ da, qara da.
Qalsam suya həsrət, susuz səhrada,
Karıma gəlməsə, lə`lim bir sual.

Könül, söylə varmı səndən görəsən?
Dərələr yaşmanır çəndən görəsən?
Yansam, nə qalacaq məndən görəsən?
Ocağım bir sual, külüm bir sual.

Zirvə qar gözləyir, başına yağa,
Yamac da ağadı, təpə də ağa.
Yazağzı çıxıram qarşılamağa
Hönkürüb ağlayan selim bir sual.

Gərək dağ çapaydım, gərək qaya mən,
Necə də inandım hər xülyaya mən?
Axı niyə gəldim bu dünyaya mən?
Tərpədir ruhumu zülüm bir sual.

Dünya sirlə dolu, bilmək də çətin,
Ürəkdən sevinib-gülmək də çətin.
Yaşamaq da çətin, ölmək də çətin,
Yaşamaq bir sual, ölüm bir sual.

## HƏKİMLƏR

Sevinci sevincə qatır gecələr
Görəndə xəstənin üzü bəridir.
Kim deyir həkimlər yatır gecələr?
Xəstə çarpayısı səngər yeridir.

Xəstəyə məlhəmdi həkimin sözü,
Uğur çox olanda qabarır sinə.
Gör necə İlahi qaldırdı sizi
Hörmətin ən hündür mərtəbəsinə.

Sizin hər biriniz əsgər yerində,
Varınız, yoxunuz səbir, həkimlər.
Çanta dərman dolu çiyinlərində
Cəbhəyə yollanır bir-bir həkimlər.

Çətinə düşəndə yada düşürlər,
Onlar ziyarətgah, pir olar hər gün.
Alova düşürlər, oda düşürlər,
Bir insan ömrünü yaşatmaq üçün.

Koronavirusun qorxusu canda,
Yaş o yaş deyil ki, dərd çəkim indi.
Bir bəyaz ordu var Azərbaycanda,
Milli qəhrəmandı hər həkim indi.

**ATANDAN QALAN DƏNİZ...**

*İstedadlı rejissor İman Məcidova*

Haqqını dilimdə bitirmişəm mən,
Səxavət əlindən tökülür varın.
Az qala sayını itirmişəm mən
Mənə elədiyin yaxşılıqların.

Ucaldır ağacı bar da, bəhər də,
Yaxşı kişilərdən cığır, iz qalıb.
Üzürsən içində axşam-səhər də
Atandan xeyirxah bir dəniz qalıb.

Çıxmasın qarşına nə duman, nə çən,
Olsun ömrün boyu üzün ağ sənin.
Təki istək olsun qəlbindən keçən
Nə vaxtsa, yoluna çıxacaq sənin.

Qəlbin hamı üçün yanan, bilirəm,
Adama yovuşan, istiqanlısan.
Suyundu, havandı anan, bilirəm,
Sən də mənim kimi anacanlısan.

Ürəyi işıqla dolu olanın
Nə vaxt qabağına boran, qar çıxıb?
Əzəldən Tanrıdan yolu olanın
Həmişə yoluna yaxşılar çıxıb.

05.04.2020

## SÖZÜN HÖKMÜ

Haqsız nəkarədi yoluma girə,
Bulanıq sulardan şəffaf çıxmışam.
Sözü qoymamışam qoluma girə,
Bir şair andına xilaf çıxmışam.

Əynində köhnədi köynəyi elə,
Vaxt olub qapımda çox gözlətmişəm.
Sinəm sızıldayır, göynəyir elə
Sən demə, sinəmdə ox gizlətmişəm.

Söz göylə əlləşib, yerlə yarışıb,
Üstümə gələndə yola vermişəm.
Başım vəzifəyə yaman qarışıb,
Mən sözün yerini pula vermişəm.

Adam öz üzünə necə ağ olar,
Özümə cəzamdı qəlbimin səsi.
Hakimin hökmündən qurtulmaq olar,
Bitməz sözün hökmü, mühakiməsi.

## KARTOF GÜLÜ

Qönçənin keyfini xəbər alıram,
Çoxdan öyrənmişəm axı dilini.
Heyrətdən yerimdə donub qalıram,
Nə gözəl ətri var kartof gülünün.

Saplağı zərifdi, qıra bilmərəm,
Güllər bir yanadı, bu gül bir yana.
Qoy gedim, yanında dura bilmərəm,
Qorxuram qızılgül görə, qısqana.

Gözüm yaşıllığın bəlkə quludu,
Hər qoxu, hər ətir ruhuma yatmaz.
Təbiət hikmətlə, sirlə doludu,
Sirrini bilməyə bir ömür çatmaz.

## UĞURUMU GÖRƏYDİN

*Fəxrəddin Teyyub dünyanın ən tənbəl şairidir*

*Əhəd Muxtar*

Sözün şələsini daşıyıram mən,
Deməyin sözümdə kəsər qalmayıb.
Bir şair ömrünü yaşayıram mən,
O tənbəl şairdən əsər qalmayıb.

Kim deyir gecələr yatıram elə?
Sözü yatırdıram özümdən qabaq.
Gecəni-gündüzə qatıram elə,
Ölüb-dirilirəm sözümdən qabaq.

Demirəm ilhamım süst edir məni,
Mən hər gün Tanrıya sarı oluram.
Zəhmətin qoxusu məst edir məni,
Qarışqa oluram, arı oluram.

Deyirəm, ruhunun gözləri aydın,
İlhamı olana nə ölçü, nə hədd.

Möcüzə olaydı, gəlib çıxaydın,
Mənim uğurumu görəydin, Əhəd!

## PAYIZ

Zəhmətə qatılsın bir az da həvəs,
Qış gəlir, barını verməyə tələs.
Mənimlə yaşıddı palıdla vələs,
Nə gözəl yaraşır yaşıma payız.

Göylərdən gör necə yağışlar yağır,
Gah gündüz, gah gecə yağışlar yağır.
Min ildi beləcə yağışlar yağır,
Yağır kəsəyimə, daşıma, payız.

Buludlar fikirli, göy ağlar kimi,
Bozarır təpələr papaqlar kimi.
Dərdlərim saralıb yarpaqlar kimi,
Yenə qəm ələyir başıma payız.
02.09.2018

# AŞAĞI...

Şama bənzəyirəm, sönürəm hərdən,
Yoxuşa çıxıram, enirəm hərdən.
Qəmin bulağına dönürəm hərdən,
Axanda gözümün yaşı aşağı.

Kişi tək batmışam batanda da mən,
Əlçatmaz arzuma çatanda da mən.
Yuxarı atmışam, atanda da mən,
Heç vaxt atmamışam daşı aşağı.

Gözəldir, zirvənin qarı olanda,
Bağçamın, bağımın varı olanda.
Ağaca oxşayır barı olanda,
Mənim əllərimin başı aşağı.

23.04.2019

# MƏNİM DUALARIM

Başımdan fikirlər keçir bir anlıq,
Ayağım üzülsə yerdən, neylərəm?
Gecələr qorxudur məni qaranlıq,
Səhər açılmasa, birdən, neylərəm?

Yerdə bir-birini hamı qovursa
İnsanın hikkəsi dünyanı yıxar.
Neylərik, havanı göyə sovursa,
Koronavirusdan nə desən çıxar.

Göylərin üzündə Ay təsəllidi,
Ulduzlar yorulub, yatır hər səhər.
Mənin dualarım ikiəllidi,
Tanrı dərgahına çatır hər səhər.

30.12.2019

# DE, GÖRÜM

Nə atan var, nə də anan, a dünya,
Kimə deyim gileyimi, de görüm?
Barmağımı bala salıb yalatdım,
Niyə uddun biləyimi, de görüm?

Ürəyimi qayğılara köklədin,
Fağır görüb məni yaman təklədin.
Neyləmişdim, qəm-kədərlə yüklədin,
Beşiyimi, bələyimi, de görüm?

Arzuma yox, ümidimə qısıldım,
Qoymadın ki, önə çıxım, basıldım.
Ömrüm boyu inamımdan asıldım,
Kim ələdi ələyimi, de görüm?

22.01.2019

## ANA HƏSRƏTİ

Sevgisi qəlbimdə hər an anamın,
Qardaş, hansı dərdi gətirim dilə?
Məzarı üstünə yollan anamın,
Ordan telefon aç, mənə zəng elə.

Dadmışam ölümü cavan yaşımda,
Qəbristan yolunun dili necə lal.
Öp mənim yerimə məzar daşından,
Əzizlə şəklini, tozunu da al.

De ki, gecə-gündüz səni düşünən,
Hər gün həsrətini çəkən balandı.
Yadına düşəndə əsən, üşünən
Gözünü yollara dikən balandı.

Ürəyim qəm dolu, sinəm dağlıdı,
Qurumaq bilir ki, gözümün yaşı?
De ki, gələ bilmir, yollar bağlıdı,
Koronavirusa qarışıb başı.

## NAĞIL

Elə ki, yel əsir, üşüyürəm mən,
Götürüb gecəni ayaz qoxusu.
Gecələr, ayılır durna köçündən,
Buludlar göylərin bəyaz yuxusu.

Özümə qoy ömür qazanım bir az,
Göylər döyüş yeri, cəngi kimidi.
Gedim, göy üzündə uzanım bir az,
Hər ulduz qəlbimin rəngi kimidi.

Adamın qəlbinə bir qorxu dolur,
Şimşək belə çaxsa, göy qopdu bəlkə.
Göylər meydançadı, oyun qurulur,
Ulduzlar oyunçu, Ay topdu, bəlkə.

www.kitabxana.net

# ÜNSİYYƏT

**Seyran Səxavətə**

Min dostun olsa da, demə bəsdi, bəs,
Ünsiyyət sarıdan yenə də acıq.
Gəldi qulağıma əziz, doğma səs,
Dedin darvazanın qabağına çıx.

Dedin ki, darıxdım, könlüm istədi,
Qoy gedim qardaşım Faxını görüm.
Axtarım, arayım, bəlkə xəstədi,
Dilinə sığmayan bağını görüm.

Deyirəm, nə yaxşı evin yaxında,
Adını qoymuşam Füzuli dağı.
Pozduq sükutunu darıxmağın da,
Əzəldən ruhumuz doğmadı axı.

Çağırsan, gələrəm, nə qar, nə boran,
Özüm bərk, dizim bərk, məni ha sına.
Nə gözəl hiss imiş darıxmaq, Seyran,
Aparır adamı dost qapısına.

## DƏRS

Gərək ağaclara başımı əyəm,
Onlarla söhbətim, sözüm olacaq.
Bu gün hər birinə dərs keçəcəyəm,
İlk dərsim küləyə dözüm olacaq.

Sevgisi ayrıdı torpağın, yerin,
Diziniz bərkisin, güc-təpər olsun.
Mehriban dolanın, əl-ələ verin,
Budaq əlləriniz qoy çəpər olsun.

Gecələr küləklə üz-üzə durub
Nələr çəkirsiniz, məgər görürəm?
Qolunu itirən əzgil yas qurub,
Döyüşdən qayıdan əsgər görürəm.

Sönməsin qəlbimin eşqi, həvəsi,
Ağaclar, sevgimlə təzə-tərsiniz.
Kitabı oxunmur axı heç kəsin,
Sizi düşünən var, bəxtəvərsiniz.

www.kitabxana.net

## AĞLAMA, XANIM, AĞLAMA

Gör bir hardan-hara gəldim,
Dərdi yara-yara gəldim.
Sən ağladın, mən kövrəldim,
Ağlama, xanım, ağlama.

Çalınmasın qəm qavalı,
Yer havalı, göy havalı.
Ağlar təqaüd çuvalın,
Ağlama, xanım, ağlama.

Özünü öyən ağlasın,
Özündən deyən ağlasın.
Haqqını yeyən ağlasın,
Ağlama, xanım, ağlama.

03.08.2019

# EV DUSTAĞI

Dünyanın üstündən bulud çəkilsin,
Artsın duaların sayı min dəfə.
İnsan azadlığın qədrini bilsin,
Qoy əllər uzansın Tanrı tərəfə.

Hamı bir-birinə təndi, gördülər,
Göylə əlləşənlər bunu qana da.
Evdə oturanlar indi gördülər
Günahsız nə çəkir həbsxanada.

Koronavirusdan utanır bahar,
Neyləsin, göyərən dərdin tağıdı.
Dünyada insana hökm oxuyanlar
İşə vax, özləri ev dustağıdı.

21.03.2020

## OTUZ İLİN HƏSRƏTİ

Bir gün aşacağam həsrət dağını,
Kəmfürsət yağıyla hələ varam mən.
Eşitsəm, Şuşanın qurtulmağını
Yolun ortasında oynayaram mən.

Kim deyir ocaqtək sönüb xəbərlər?
Yatmıram sevincdən, səhərə kimi.
Durna qatarına dönüb xəbərlər
Uçurlar cəbhədən şəhərə kimi.

Deyirəm, qalmasın heç kəsin xətri,
Ruhum döyüş üçün zəncir çeynəyir.
Elə darıxmışam səngərdən ötrü,
Az qala burnumun ucu göynəyir.

Nə olsun dərdindən alışıb sinə,
Mənim də günahım az deyil, Şuşa.
Türkün hənirinə, ayaq səsinə
Sən həsrət qalmısan otuz il, Şuşa.

Uzaqda deyil ki, zəfər bayramı,
Bir azdan sevincə sevinc qarışar.

Ekran qabağında gözləyir hamı,
Ali Baş Komandan nə vaxt danışar.

28.10.2020

www.kitabxana.net

**OLSUN**

Tanrım, qulağıma bir söz pıçılda,
Bağlı qapıları açan söz olsun.
Əritsin atəşi daş ürəkləri,
Günəş tək qoy alov saçan söz olsun.

Qönçədə gözəldi ləçək yerişi,
Saplaqda bir yaşıl çiçək yerişi
Sıxır ürəyimi böcək yerişi.
Mənzilə tez çatan, qaçan söz olsun.

Arzumun yamyaşıl talası kimi,
Ruhumun uçulmaz qalası kimi,
Adamı öz doğma balası kimi
Alıb ağuşuna qucan söz olsun.

Sənin dərgahına vurulmuşam mən,
Sevgim bulaq kimi, durulmuşam mən.
Piyada gəzməkdən yorulmuşam mən,
Quş kimi göylərdə uçan söz olsun.

## ANADI HƏR SİRRƏ DİVAR DÜNYADA

Qismətim yenə də məni tapaydı,
İstəyə bir baxın ahıl yaşında.
Möcüzə olaydı, çörək yapaydı
Anamı görəydim təndir başında.

Ömrümün şamısan, elə bir şam ki,
Kimlər ocağıma, oduma gəlmir.
Özümü o qədər unutmuşam ki,
Səni unutmağım yadıma gəlmir.

Əlin açıq idi, qəlbin gen idi,
Qoyurdun özünü acın yerinə.
Atam qaraqabaq, deyingən idi,
Səbrinlə dözürdün tənələrinə.

Hazırın naziri idik hərəmiz,
Qayğılı axşamın, səhərin hanı?
Ehtiyac saçanda kasıb süfrəmiz
Boynunu bükdüyün günlərin hanı?

Yadlar qurunu da yaş eyləyəcək,
Anadan da doğma nə var dünyada?

Kimsəyə sirr versən, faş eyləyəcək,
Anadır hər sirrə divar dünyada.

26.05.2021

## BİZ NİYƏ BELƏYİK?

Ürəyim doludu, axı sözüm var,
Yaxınlar, doğmalar yad olub, nədən?
Sönüb ocaq kimi inam, etibar,
Sədaqət sözünü silin lüğətdən.

Günahdan pay düşür hər birimizə,
Hamı yaxasını qırağa çəkir.
Qənim kəsilmişik bir-birimizə,
Yetən gülləsini darağa çəkir.

Səhər də, axşam da boğulur səsi,
Qeyrətli qəlbində zədə saxlayır.
Kitabın oxumur heç kəs heç kəsin,
Çoxu baş girləyir, mədə saxlayır.

Düşmənin səhvini bağışlamışıq,
“Neynək, olan olub, keçib” demişik.
Nə vaxt ağıllını alqışlamışıq?
İmkanı olana “nəcib” demişik.

Dərəni adladıq, dağları aşdıq,
Hisslər buza döndü, duyğular ılıq.

Guya ki, dəyişdik, avropalaşdıq,
Sümüyə işlədi soyuqqanlılıq.

Qızıldan olsa da, evin dirəyi,
Şəkərə dadanan arısı haram.
Zəmidən süfrəyə gələn çörəyin
Yarısı halaldı, yarısı haram.

Nə qədər gec deyil, düşünək dərin,
Yalandan deməyək, biz uca dağıq.
Bir azdan əyilməz, mərd kişiləri
Vallah, əldə çıraq axtaracağıq.

10.12.2018

## SEVGİNİN QIŞ FƏSLİ

Sönüb ürəyimdə sevgi duyğusu,
Üzümə,  gözümə əsib qocalıq.
Uzağa getməyin, canda qorxusu
Əlimi, qolumu kəsib qocalıq.

Əl ver, qoy zirvədən endirim səni,
Hara baxıramsa, sirr axtarıram.
Bəzən halım olmur dindirim səni,
Canımı qoymağa yer axtarıram.

Deyirsən gözümdə hələ cavansan,
Düşməsin əlindən sevgi çəliyin.
Nazını çəkməsəm, soruşacaqsan,
Bəs hanı məhəbbət öhdəçiliyin?

Nə yaxşı sən varsan, açılır eynim,
Ömrümdə bir bahar nəfəsli varmış.
Yaş yaman soyudub qəlbimi, neynim,
Demə sevginin də qış fəsli varmış.

06.03.2019

www.kitabxana.net

## BELƏ YAŞAMAĞIN NƏYİ PİSDİ Kİ...

Su içdim bir qəlbidaşın əlindən,
Sevginin yolları duman, sisdi ki...
Sevirəm təkliyi, tənhalığı mən,
Belə yaşamağın nəyi pisdi ki?

Ümidi ürəkdə daşımaq olar
Həqiqət gül açsa, yalan olmasa.
Deyirəm, yüz il də yaşamaq olar,
Dünyanı gözündən salan olmasa.

Daşı dəlib keçdi, yeridi sözüm,
Suladım, bitmədi həsrətin tağı.
Nökər də özüməm, ağa da özüm,
Məni buyuranı neynirəm axı?

Lal axan çay kimi axıb gedirəm,
İşimi əyən yox, pəl vuranım yox.
Hara istəyirəm, çıxıb gedirəm,
Harda nə qoyuram, əl vuranım yox.

Könlümün aynası çilik-çilikdi,
Bitişməz nəzirlə, sadağalarla.

Gözümü qorxudan öhdəçilikdi,
Yaşaya bilmirəm qadağalarla.

23.09.2021

## MƏNƏ DEYİRLƏR Kİ...

Mənə deyirlər ki, bir az solmusan,
Dünyanın dərdini çəkən solmasın?
Qara bulud kimi yaman dolmusan,
Qəlbində qəm-kədər əkən dolmasın?

Ümid harda azıb, tuşuma gəlmir,
Bəlkə gəlib çıxsa, gecə olacaq.
Dünyanın işləri xoşuma gəlmir,
Bizdən sonrakılar necə olacaq?

Tuşlanıb ox kimi ömrümə yaşım,
Mən özüm-özümə asiyəm, asi.
Necə dərə keçim, necə dağ aşım?
İstəyim gücümlə tərs mütənasib.

Əlim bəd görəndə işdən soyuyur,
Yaxşıya nökərəm, pisə də yadam.
Görəsən məzarda necə uyuyur
Avtomat silahı kəşf edən adam?

Bağçamda titrəyən gülüm boylanır,
Ömrün yazı varsa, payızı da var.

Kəşf var ki, sonunda ölüm boylanır,
Belə ölüm saçan ixtira olar?

Görəydim şam kimi əriyib, sönüb
Nahaq ölüm hökmü yazan barmağı.
Kəsərdim, cəllada, qatilə dönüb,
Nüvə düyməsini basan barmağı.

26.03.2020

www.kitabxana.net

# DÜNYANIN MAYASI SÖZDƏN YOĞRULUB

*Ulu Nizaminin 880 illiyinə*

Tanrım təbi mənə mükafat verib,
Şəninə söz qoşub, şeir yazıram.
Piyada deyiləm, köhlən at verib,
Qəlbimdə doludu mehr, yazıram.

Ürəyin sevgiylə gərək döyünə,
Kəssə çən yolunu, çəni bağışla.
Gəldim söz payımla yubileyinə,
Xoşuna gəlməsə, məni bağışla.

Kim bilir, görən söz nə vaxt doğulub?
Gərək gözün olsun, gözün üstündə.
Dünyanın mayası sözdən yoğrulub,
Dünyanın duruşu sözün üstündə.

Duyğular dil açır, kamana dönür,
Sözün hənirindən güc alır ürək.
Gah coşub çağlayan ümmana dönür,
Gah da ki, dağ kimi ucalır ürək.

Hər kəlmən möcüzə, sirdi elə bil,
Tanrının payısan bəşəriyyətə...
Səkkiz yüz səksən il... bu ömür deyil,
Yoldu, yol, uzanır əbədiyyətə.

Bir qoca palıdsan, kökün dərində,
Gör kimlər kölgənə axışar, ustad.
Sən hardan biləydin günün birində
Dünya işığına yığışar, ustad?

05.11.2021

**DÜNYADA**

Bir ömürdə neçə ömür yaşadım,
Bir ömürdə nələr gördüm dünyada.
Özgəsinə quyu qazan hər kəsi
Axır bir gün mələr gördüm dünyada.

Ürəyində xıltın varsa, üz qaran,
Əl tutmaqla ömrün boyu yox aran.
İlanı da yuvasından çıxaran
Şirin, şəkər dillər gördüm dünyada.

Hər yetənin qızıl taxtı olmadı,
Taxt olanda bir az baxtı olmadı.
Ürəyimin gülən vaxtı olmadı,
Qan-qadalı illər gördüm dünyada.

Var gördülər, yollarını azdılar,
Haqq deyəni hər gün daşa basdılar.
Ədaləti bəzən dardan asdılar,
Soyuq əsən yellər gördüm dünyada.

Bahar çağı bənd-bərəni kəsdirən,
Kötükləri beşik kimi gəzdirən,

Dərələri əsim-əsim əsdirən,
Aşıb-daşan sellər gördüm dünyada.

Bu təknədi, bu çuvaldı boşalan,
Hansı qapı, pəncərədi qış alan?
Nə yaxşı ki, səxavətdən beş alan,
Çörək verən əllər gördüm dünyada.

03.01.2021

**DEDİM...**

Mən sənin xətrinə dəydim deyəsən,
Sənə nə dedimsə, düzünü dedim.
Yoldadı, Tanrıdan ruzu istəmə,
Tox eylə könlünü, gözünü dedim.

Qorxuram tamahın yolunu kəssin,
Qəlbinə öyüd ver, qoyma tələssin.
Əsməkdi küləyin işi, qoy əssin,
Qoru əsən mehdən özünü, dedim.

Nəzir ver, göylərdən qismətin ensə,
Gedən peşman olub, üstünə dönsə.
Çox da qəm eləmə, ocağın sönsə,
Kül saxlar altında közünü dedim.

Könlüm açıq qapı, barışığı var,
Arzunun ümidlə qarışığı var.
Zirvənin başında qar işığı var,
Yoxuşlar yormasın dizini, dedim.

30.10.2021

# SƏNİN GÖRÜŞÜNƏ MİLYONLAR GƏLİR

*Teleaparıcı Səyyarə xanım Səyyafa*

Səni dinləyənin ruhu dincəlir,
Tanrının nur payın üzündə gördüm.
Süfrənə çörəyin dilindən gəlir,
Sözün işığını gözündə gördüm.

Qızımın səsinə oxşayır səsin,
İzn ver, qoy sənə qızım deyim mən.
Səninlə üzbəüz oturan kəsin
Görən xəbəri var xoşbəxtliyindən?

Səni sevənlərin güllü yazısan,
Hər sözün, söhbətin bal duzdu axı.
Həm yerin, həm də ki, göyün qızısan,
Sənin bir adın da ulduzdu axı.

Qayğılı olanda qəmin gözündə
Nə qönçə açıldı, nə gül üşüdü.
Ulduzlar dinləyir göyün üzündə,
Elə bil gülüşün Ay gülüşüdü.

www.kitabxana.net

Arxan ulu Tanrı, arxan Qurandı,
Demə ki, üstünə hardan var gəlir.
Daha görüş yerin mavi ekrandı,
Sənin görüşünə milyonlar gəlir.

13.11.2021

## ONDA BAŞLAYIRAM ŞEİR YAZMAĞA

Qayğılı olanda, bilmirəm niyə,
Ayrı cür görürəm çölü, çəməni.
Gərək kimsə mənim xətrimə dəyə,
Qəlbimə toxuna, incidə məni –
Onda başlayıram şeir yazmağa.

Bir kasıb görəndə məni dərd alır,
Çırpınır ürəyim, sözü var kimi.
Nə vaxt pul qurtarır, cibim boşalır,
Ehtiyac ulayır canavar kimi,
Onda başlayıram şeir yazmağa.

Həyat ümmanında azmıdır batan?
Zəhərə dönübdür bir loxma çörək.
Hər gün həyasını küçəyə atan
Dilənçi görəndə ağrıyır ürək,
Onda başlayıram şeir yazmağa.

Rəssam, fırça götür, yeri-göyü çək,
Göylər od püskürür şimşək əlindən.
Uzaq səfərlərə gedən yolçutək

www.kitabxana.net

Bulud ki, danışdı yağış dilində,
Onda başlayıram şeir yazmağa.

Mənim dərdlərimin dərdi yurd yeri,
Necə yaşayıram, varam içində?
Ruhumun qaldığı yerdi yurd yeri,
Elə ki, sızlayır yaram içimdə,
Onda başlayıram şeir yazmağa.

## ANAM ÇOX SEVƏRDİ SƏNİ, AY PAYIZ

Nə gözəl səhərdi bu səhər, Allah,
Payızın şah vaxtı, ağa vaxtıdı.
Şimşək qamçılayır bulud atları,
Torpağa bərəkət yağan vaxtıdı.

Görən bir də nə vaxt güləcək bağlar,
Haçan görəcəyəm bar bənövşəni?
Gözün yerə dikib bardan budaqlar,
Əvəz eləyibdir, nar bənövşəni.

Torpağa baxıram, naxış-naxışdı,
Əsir payız yeli, qanım üşüyür.
Xəzəllər ruhuma yağan yağışdı,
Bədənim üşüyür, canım üşüyür.

Qoy sənin üzünü doyunca görək,
Neynirsən dumanı, çəni, ay payız.
Elə ki, gəlirsən, çırpınır ürək,
Anam çox sevərdi səni, ay payız.

15.09.2020

## BİR AZ DA YAŞAMAQ...

Gözlərim yorulmaz dumanda, çəndə,
Keyfimi-halımı soruşan varsa.
Çətinə düşəndə, dara düşəndə
Dərdimə-sərimə qarışan varsa, -
Bir az da yaşamaq istəyir adam.

Məni əzizləyən eli görəndə
Az qalır sevincdən yellənim, gedim.
Dərədə çağlayan seli görəndə,
Könlümdən keçir ki, sellənim gedim,
Bir az da yaşamaq istəyir adam.

Axanda sevincdən axsın göz yaşı,
Həyat gözəlləşir əl gətirəndə.
Möcüzə görəndə hər addımbaşı
Tanrı daş üstündə gül bitirəndə
Bir az da yaşamaq istəyir adam.

Çoban dağa çıxır atın belində,
Hər kəsin yanında hörməti, xətri.

Biçinçi ot biçir dəryaz əlində,
Yayılır hər yana otların ətri,
Bir az da yaşamaq istəyir adam.

Gecə təbim coşar, ilhamım qaynar,
Hər ulduz bənzəyir göydə bir zərə.
Ay bulud dalında gizlənpaç oynar,
Könlümü oxşayır bu xoş mənzərə,
Bir az da yaşamaq istəyir adam.

## VAR OLUN

Çörək tapmaz bir gün üzə ağ olan,
Bəxtəvərdi arxasında dağ olan.
Uğurumun ümmanında boğulan
Bədxahlarım, paxıllarım, var olun.

Ocaq sönsə, isitməsə köz məni,
Həniri var, isidəcək söz məni.
Bağrınıza basırdınız siz məni,
Bədxahlarım, paxıllarım, var olun.

İlinizi, ayınızı bilmirəm,
Arzunuzu, payınızı bilmirəm.
İtirmişəm, sayınızı bilmirəm,
Bədxahlarım, paxıllarım, var olun.

Səxavəti olan adam öyünməz,
Bir yerinə beş versə də deyinməz.
Ürək kinlə, küdurətlə döyünməz,
Bədxahlarım, paxıllarım, var olun.

Günah elə təbimdədir, suçum var,
Beş aldığım yadımda yox, üçüm var.
Bu dünyada mənim sizə borcum var,
Bədxahlarım, paxıllarım, var olun.

## ŞAİR SEVMƏLİDİR ÖLƏNƏ KİMİ...

Alın yazısıymış səni görməyim,
Elə görən kimi vurulmağım da.
Eşqin dərəsində çəni görməyim,
Sel kimi çağlayıb durulmağım da.

Əsdi ürəyimdə gənclik küləyi,
Ağaran saçımı unutdum, niyə?
Yerin yaraşığı, göyün mələyi,
Mən necə göz yumum bu gözəlliyə?

Mənim bir taxtım var, sevgi dağında,
Qismətim üzümə gülənə kimi.
Sevmək günah deyil, ahıl çağında,
Şair sevməlidir ölənə kimi.

Gecələr sirrimi bir Aya verdim,
Gecələr uzandı yol əvəzinə.
Sənə ürəyimi kirayə verdim,
Məhəbbət istədim pul əvəzinə.

Kimsə oxuyacaq vəsiyyətimi,
Mənə yer verməsin heç kəs yanında.

Basdırın gecikən məhəbbətimi,
Nakam sevgilərin qəbristanında.

**XATİRƏ**

Bir partada oturardıq səninlə,
Gözlərinin rəngi qalıb yadımda.
Deyirdim ki, dərs uzansın, bitməsin,
Həsrətimin zəngi qalıb yadımda.

Boğulursan ehtiyacın içində,
El üzünə hamı deyir nərin var.
Ömrün-günün keçir əkin-biçində,
Deyirlər ki, bir avara ərin var.

Görməyəydim səni üzün dönəndə,
Bəyənmədin məni, gözəl, neyləyim?
Özgəsinin odu varmış sinəndə,
Məktub yazdım, gəzdi əl-əl neyləyim?

Düşünürəm, görən, kimdi itirən?
Sən tərəfdə yol sırsıra, nə deyim?
Ürəyimin qonşusudu xatirən,
Görüşürük ara-sıra, nə deyim?

20.12.2018

## DÜŞMÜSƏN CİBİMDƏN ƏSKİNAZ KİMİ

Varından hamıya bir pay ayırsan,
Kim bilər qədrini, əbəsdi, əbəs.
Uşağın səhvini bağışlayırsan,
Böyük səhv edəndə neyləyəsən bəs?

Uşaq deyilsən ki, neçədir yaşın?
Deyirəm, hər sözü demə, deyirsən.
Girmə arasına iki qardaşın,
Sən kimin sözünü kimə deyirsən?

Bir gün ata minən, bir gün düşər də,
Nə zaman səhvini anlayacaqsan?
Bizi görməsələr, xeyirdə, şərdə,
Özünü o ki var danlayacaqsan.

Adəm nəvəsiyik, çiy süd əmmişik,
Günahın olsa da, demirəm əyil.
Hərəmiz bir misra əzbərləmişik,
"Bizim dost itirən vaxtımız deyil".

Ürəyim üzümə gülməz yaz kimi,
Kimə səhvlərinlə ötürüm səni?

Düşmüsən cibimdən əskinaz kimi,
Ürəyim istəmir götürüm səni.

19.09.2020

## QƏM-KƏDƏR ADAMDAN QABAQ DOĞULUR

Arzular puç oldu, belədən-belə,
Ömür gəlib keçdi röya içində.
Bacarmaq asandı tək dünya ilə,
Dünyalar var axı, dünya içində.

Bayrama dönsə də qışın gedişi,
Yazda nə olacaq, hardan biləsən.
Bəzən bir arının gördüyü işi
Görə bilməyirsən ömür boyu sən.

Qönçələr həsrətin düyünü kimi,
Ləçəklər butada say, bir dünyadı.
Göy oyun meydanı, ulduz oyunu,
Günəş bir dünyadı, Ay bir dünyadı.

Hər kəsin taleyi, qisməti ayrı,
Baxır bu dünyada kim ağ doğulur.
Qoymur yol gedəsən işığa sarı,
Qəm-kədər adamdan qabaq doğulur.

20.03.2020

## KÜLƏK, YAĞIŞ...

Sevinc aşıb-daşır, ümid bir ətək,
Şükür ki, birtəhər ötürdüm qışı.
Döyməyin qapımı, qəfil qonaq tək,
Nə səni sevirəm, nə də yağışı.

Qızılgül küləkdə necə dikəlib?
Buta gözlərində qəmi, nisgili.
Elə bil uşaqdı, dalaşıb gəlib,
Çeçələ barmağı sınıb əzgilin.

Ləçək bir ömürdü, yarpaq bir ömür,
Qoxusu ayrıdı çiçəyin, otun.
Mənə gözəlliyin sirrini demir,
Gözümü oxşayır barı xar tutun.

Yağış nə vaxt kəsər, görəsən, Allah,
Silin göz yaşını, qönçə ağlayır.
Külək, dayan bir az, əsmə, sən Allah,
Görmürsən ağaclar bala saxlayır?

22.05.2019

## GƏLİR

Qəlbimdə istəklər əsir yel kimi,
Ömrümüz, günümüz axır sel kimi.
Fəsillər fırlanır karusel kimi,
Payız köç etməmiş qarlı qış gəlir.

Çoxları ayını, ilini bilmir,
Sabahı düşünmür, vayını bilmir.
Adam var, varının sayını bilmir,
Bir naxış üstünə min naxış gəlir.

Hər arzum qəlbimin sarı simidi,
Duyğular sünbüllü, qızıl zəmidi.
Ümidim yarıtmaz uşaq kimidi,
Hələ ki, üstümə əliboş gəlir.

27.06.2021

**TANRI PAYI**

Tanrım, mənə elə bir şeir göndər,
Səhər də, axşam da dodaqda gəzsin.
Ruhunu verəndə nəfəsini dər,
Quştək qanad açıb budaqda gəzsin.

Ətrinə bələnsin evlər, küçələr,
Hamıya xoşüzlü səhər gətirsin.
Ayın görüşünə getsin gecələr,
Yerə ulduzlardan xəbər gətirsin.

Eləcə gözünü Günəşə diksin,
Eyləsin oduyla xoş, ürəkləri.
Sevən ürəklərin nazını çəksin,
Doldursun sevgiylə boş ürəkləri.

Bitsin çinar təki yol qırağında,
Ucalsın ruhumun qalası kimi.
Bir də eşidəm ki, el sorağında
Hamı əzizləyir balası kimi.

Köçürsün gözünə çölü, çəməni,
Axan qanım olsun, iliyim olsun.

Hər kəs o şeirdən tanısın məni,
Üstümdə sənədim, kimliyim olsun.

23.02.2021

www.kitabxana.net

**BÖLGÜ...**

Sevincim dayazda, dərdim dərində,
Elə bil ölüyəm, nə olsun, sağam.
Mən hardan biləydim günün birində
Oğlumdan, qızımdan utanacağam.

Tanrı qızıl atdı sinimə bəlkə,
Dağ kimi bir sinə, döş axtarıram.
Kağız yapışdırım sinəmə bəlkə?
Yazım ki, oğluma iş axtarıram.

Əsir gümanların soyuq küləyi,
Hələ ki, beləcə əsir, neyləyim?
Bu qürur mələyi, qeyrət mələyi
Adamın yolunu kəsir, neyləyim?

Səhər də, axşam da öyürsən, ata,
Axı qoyub səni küncə dostların.
Sənə sualım var, deyirsən, ata,
Niyə açılmadı qönçə dostların.

Nə sözüm yeriyir, nə də qolum yox,
Daha neyləyirsən hər öyüdümü?

Oğul, belə getsə, ayrı yolum yox,
Gərək böləm sənnən təqaüdümü.

Kimdəsə əl tutmaq həvəsi soyuq,
Ruzunun yolunu kəsən günahkar.
Zamanın üzü boz, nəfəsi soyuq,
Nə mən günahkaram, nə sən günahkar.

22.04.2021

www.kitabxana.net

## VARAĞA RUZU, DƏN GÖTÜR

Qəlb oxşaya gərək şeir,
Misralardan bal süzülə.
Xatirələr yada düşə,
Adam kövrələ, üzülə.

Ətri səni məst eləyə,
Rayihəsi göyü, yeri.
Qəlbindən bir duyğu keçə,
Mən yazaydım, kaş bu şeri.

Yada sala dağ çayını,
Şəlalə olmağın gələ.
Bulud olmaq istəyəsən,
Boşalıb-dolmağın gələ.

Gecə göyün sinəsinə
Aparıb xalı sərəsən.
Ay bağbandı göy üzündə,
Aldadıb ulduz dərəsən.

Göylər sözün yuvasıdı,
Varağa ruzu, dən götür.
Ucuzu var, bahası var,
Seçib incisindən götür.

10.09.2019

**VƏTƏN, TORPAQ...**

Torpağa qeyrətdən gərək dən düşə,
Üzü boz dünyada nə var ki, asan?
Vətən pul deyil ki, cibindən düşə,
Başın buraxasan, axtarmayasan.

İçində saxlayır, kimə sirr verir?
Kişi papağıdı, qadın donudu.
Torpağı, öləndə bizə yer verir,
İnsanın əvvəli, həm də sonudu.

Atadan, anadan yadigar kimi
Qoru daşını da, çınqılını da.
Sevgidən ağarar üzün qar kimi,
Ayırsan gülündən qanqalını da.

Qarabağ qurtuldu, daha nə haray?
Səhər də, axşam da toydasan, Vətən.
Kiminsə qəlbində işıqlı saray,
Kiiminsə mədəsi boydasan, Vətən.

Borcundan çıxmağa girəvə axtar,
Məsləyin sözünlə düz olsa, bəsdi.

Nə fili soraqla, nə dəvə axtar,
Üstündə gəzməyə üz olsa, bəsdi.

Qoru özün kimi, nə qış, nə bahar,
Hər şəhid gözündə itən, vətəndi.
Hardansa vətənə baxmağa nə var,
Səngərdən baxanda vətən, vətəndi.

15.10.2021

## GÖZƏL

*Ömür-gün yoldaşıma*

Məni tam eylədin, cəmimsən axı,
Zilim özgəsiydi, bəmimsən, axı.
Sən mənim sonuncu gəmimsən axı,
Səndə lövbərimi salmışam, gözəl.

Gözlədim, küləklər kəsənə qədər,
Ürəyim yolunda əsənə qədər.
Çox zülüm çəkmişəm mən sənə qədər,
Həsrətin sazını çalmışam, gözəl.

Deyirsən hər dərdi çəkən kişisən,
Ümid toxumunu əkən kişisən.
Dilinə sözüm yox, şəkər kişisən,
Xəbərim yox imiş, balmışam, gözəl.

Dadmışam sevgimin nübarını mən,
Görmüşəm baxtımın baharını mən.
Nə yaxşı xoşbəxtlik açarını mən
Sən tək vəfalıdan almışam, gözəl.

Saflığın, düzlüyün mənə sirr olub,
Əzəldən qəlbinlə dilin bir olub.
Pis, yaxşı, uşaqlar yerbəyer olub,
Nəvənin əlində qalmışam, gözəl.

13.02.2021

## MƏN AZƏRBAYCANA SƏPƏLƏNMİŞƏM

Şükür, üzü gülür daha torpağın,
Hər qayam, hər dağım, daşım ucadı.
Küçələrdə insan selinə baxın,
Vətən, başın uca, başım ucadı.

Məni məst eyləyib zəfərin ətri,
Qayğılı gələndə yaz, sevinmədim.
Deyirəm heç kəsin qalmasın xətri,
Vallah, Şuşalıdan az sevinmədim.

Keçdi qara günlər, üzümüz ağdı,
Sevincin zirvəsi – qələbə anı.
Bəxtəvər olmaqdı, xoşbəxt olmaqdı,
Bütöv görmək anam Azərbaycanı.

Kədər üz verəndə, sönürəm bəzən,
Sevincin mehindən doyub gedirəm.
Evimə ürəksiz dönürəm, bəzən,
Bir şəhid evində qoyub gedirəm.

Həsrətin evini tərk eyləmişəm,
Göylərdə uçuram bu bayram günü.

Qələbədən sonra dərk eyləmişəm
Vətənin, torpağın böyüklüyünü.

Yurd, torpaq nisgili qəddimi əydi,
Ürəyim duymadı yaz nəfəsini.
Anama qoynunda yer verməsəydi,
Bilməzdim torpağın fəlsəfəsini.

Ağrını, acını canda görmüşəm,
Sevgidən danışan qatilə dönüb.
Savaş da görmüşəm, qan da görmüşəm,
Səngərdə bir günüm bir ilə dönüb.

Oxşayır ruhumu dağ da, aran da,
Ümmanam, daşmışam, ləpələnmişəm.
Anam doğub məni Şıxəkəranda,
Mən Azərbaycana səpələnmişəm.

08.11.2021

## TÖKÜL

Göz dil açar, ürək ağlar,
Bir də gəlməz ötən çağlar.
Xəbər var ki, könül dağlar,
Dəymişim qal, kalım, tökül.

Deməyin ki, dərinəm mən,
Göydən düşdüm, yerinəm mən.
Bal kimiyəm, şirinəm mən,
Dilim pətək, balım, tökül.

Könül verdim yara, getdi,
Məndən üzüqara getdi.
Qıvrım saçlar hara getdi?
Ay saçımın çalı, tökül.

Dərin gedə, dayaz gələ,
Şaxta düşə, ayaz gələ.
Elə gərək payız gələ?!
Xəzələ dön, gülüm, tökül.

23.09.2021

## İNSAN XİSLƏTİ...

Başının üstündə təki dam olsun,
Lap elə oxşasın qəzet köşkünə.
Deyirsən balaca bir daxmam olsun,
Sonra da düşürsən saray eşqinə.

Xatırla, yada sal qədim insanı,
Nə üst-baş, nə də ki, əyin var idi.
Qınama, alnına yazı yazanı,
Dünyaya gələndə nəyin var idi?

Dilində bitməyib şükür kəlməsi,
Yolunu azanı danlamaq olmur.
Çatmır qulağına Tanrının səsi,
Naşükür insanı anlamaq olmur.

25.09.2019

## QÜRUBA GEDƏN QATAR

Adam nəylə inci alsın?
Özünə bir küncü alsın.
Tanrım, bəndən dincin alsın,
Dərgahına yetir məni.

Ömür dağdı, yaşa çıxdım,
Arzularla qoşa çıxdım.
Ümid, səni başa çıxdım,
Gir qoluma, ötür məni.

Necə qovum ehtiyacı?
Bir ac quşam, dən möhtacı.
Həyat gülür acı-acı,
Qurd ağzına atır məni.

Hara getdi ötən qatar?
Uzaqlarda itən qatar.
Ay qüruba gedən qatar,
Sərnişinəm, götür məni.

Vətən, baldı qaraltın da,
Uçan ruhum göy altında.

Bəsdi gəzdim asfaltında,
Səngərində itir məni.

29.09.2021

www.kitabxana.net

## GEDƏYDİ

Yaman incimişəm bu şəlalədən,
Gərək ürəyimə axıb gedəydi.
Şimşək də qəlbimə toxunub bir az,
Göydə yox, başımda çaxıb gedəydi.

Bir yorğun ömür də bitəydi elə,
Nisgil dumanında itəydi elə.
Müştəri düşəydi, ötəydi elə,
Əcəl gözlərimə baxıb gedəydi.

Ömrüm yarpaq üstə bir şehin ömrü,
Gah əsən küləyin, gah mehin ömrü.
Barmaqdan asılan təsbehin ömrü,
Vaxtın komasını yıxıb gedəydi.

Nə fərq gözə dəyə, nə nisbət ola,
Üzdə həya ola, ar, ismət ola.
Dünyadan köçəndə yer qismət ola,
Adam adam kimi çıxıb gedəydi.

12.10.2019

## BƏDXAHLAR ÇOXALIR UĞUR OLANDA

Ömrümdə bilmədim paxıllıq nədi,
Qoymuşam çoxunu mən öz yerimə.
Biri axtarmadı, zəng eləmədi,
Mübarək demədi şeirlərimə.

Hamıya pay verib duyğularından,
Ürəklər içində ürəyim təkdi.
Demirəm bir kimsə keçsin varından,
Məgər xoş söz demək pul xərcləməkdi?

Susmuram, bir kimsə ara qatıbsa,
Əzəldən od üstə su tökmüşəm mən.
Hər kəs mənə tərəf addım atıbsa,
Qaçıb qabağında diz çökmüşəm mən.

Paxıla bir dünya təşvişdi axı
Kiminsə qəlbinə sevinc dolanda.
Mənə Adil Cəmil demişdi axı
Bədxahlar çoxalır uğur olanda.

10.10.2021

## DURNAM DEYƏRDİM

Söküldü ruhumun himi, dayağı,
Dondu Ay yerində, Günəş yerində.
Necə bağışlayım özümü axı?
Yanında olmadım son günlərində.

Soyuq yellər əsir arzu tərəfdən,
Qurumaq bilmir ki, gözlərimdə yaş.
Tərkidünyalığı düşünüb hərdən,
Bir az da ölümdən danışaydıq kaş.

Sevgimin ocağı söndü elə bil,
Qarışdı küləyə yoxum, varım da.
Bir yetim uşağa döndü elə bil
Verə bilmədiyim suallarım da.

Bilməzdim yoluna düşər duman, çən,
Yaşadır adamı inam, deyərdim.
Bilsəydim vədəsiz köç edəcəksən,
Sənə ilk gündən durnam deyərdim.

21.09.2021

## SÖZÜMƏ QULAQ ASMADIN

Sən niyə sözümə qulaq asmadın?
Sevgi cığırında demə azmadın.
Sənə məktub yazdım, cavab yazmadın,
Nə olsun, gözlərəm, ölənə kimi.

Vüsalın gülünü dərib gəlmişəm,
Həsrəti sinəmə sərib gəlmişəm.
Gedib o dünyanı görüb gəlmişəm,
Qəlbimi ikiyə bölənə kimi.

İnsan gah qarlı qış, gah da ki yazdı,
Biri dərindisə, biri dayazdı.
Min ömür yaşasan, yenə də azdı,
Dünyanın sirrini bilənə kimi.

28.05.2019

www.kitabxana.net

## OLACAQ

Mənə deyirlər ki, bir az arsız ol,
Gör necə işlərin asan olacaq.
Hər gün sevənlərin artacaq, səni
Nə qədər bağrına basan olacaq.

Qaralıb gedərsən tərif hisində,
Yaxşı işi olur bəzən pisin də.
Şənlənmək istəsən, hər məclisində
Neçə-neçə aşıq, ozan olacaq.

Varı ürəyinə sıxar adamlar,
Daşları, damları yıxar adamlar.
Sənin pişvazına çıxar adamlar,
Adına nəməri yazan olacaq.

Nə vaxtdı açılmır eynim, deməzsən,
Elə bil qarışıb beynim, deməzsən.
Neyləyim, deməzsən, neynim deməzsən,
Ocaq üstə dolu qazan olacaq.

22.03.2019

## ÖLSƏM, MƏZARIMDAN ÇIXIB GƏLƏRƏM

Bir uca çinarsan, kökün dərində,
Azalmır qayğın da, dərdin, sərin də.
Düşməni görməyim həndəvərində,
Gözümdə alınmaz qalasan, Vətən!

Məndən ürəyimi, canımı istə,
Bir parçan dardadır, düşmüşəm xəstə.
Gecələr anamın beşiyim üstə
Çaldığı ən həzin laylasan, Vətən!

Övladın zay olsa, yurdda daş qalar?
Solsa bağın, bağçan gözdə yaş qalar?
Əlini bərk elə, təknən boş qalar,
Varını-yoxunu paylasan, Vətən!

Gur çaya dönərəm, axıb gələrəm,
Qarşıma nə çıxsa, yıxıb gələrəm.
Ölsəm, məzarımdan çıxıb gələrəm,
Sən məni səsləsən, haylasan, Vətən!

21.11.2019

**NURDU...**

Mən gah dağam, gah aranam,
Qaya çapıb, dağ yaranam.
Qışım, səndən nigaranam,
Baharım nur, yazım nurdu.

Qılıncınam, qolunda mən,
Boşun da mən, dolun da mən.
Vətən, yansam yolunda mən,
Külüm torpaq, közüm nurdu.

Payız gəlib soldurmağa,
Çuvalını doldurmağa.
Yıxılanı qaldırmağa
Tələsirəm, izim nurdu.

Hər kəsin öz aşığı var,
Hər kəsin öz işığı var.
Mayamda söz işığı var,
Ruhum nurdu, sözüm nurdu.

31.12.2019

## MƏNİM XƏYALIMIN TƏYYARƏSİ VAR

Dərəni adlayar, dağ aşıb gələr,
Nə azar, nə də ki, itər xəyalım.
Göyü də, yeri də dolaşıb gələr,
İşıq sürətini ötər xəyalım.

Çağlayır qanımda gənclik həvəsi,
Gəzib dolaşaram mağaraları.
Gələr qulağıma keçmişin səsi,
Qayalar dağların nağaraları.

Nə giley, nə də ki, qeybət eylədim,
Tarix tərəzidi, daş çəkəcəyəm.
Bu gün Nizamiylə söhbət eylədim,
Sabah Nəsimiyə baş çəkəcəyəm.

Axtarıb tapmasam özümü yerdə,
Uçaram, göylərə möhtac olaram.
Gedib gələcəyəm dünyaya bir də,
Bəlkə də bu dəfə ağac olaram.

Göylərin nə qədər səyyarəsi var,
Gecələr hər biri oxşar qəlbimi.

Mənim xəyalımın təyyarəsi var,
Uçuram biletsiz sərnişin kimi.

05.05.2020

**RUHLARIN GÖRÜŞÜ**

Anamın bir mələk anası vardı,
Səsi ürəkaçan, doğma səs idi.
Həmişə əlində xınası vardı,
Səxavət əlləri kəndə bəs idi.

Küsməyi sevməzdi, kini yoxuydu,
Dözərdi hər kəsin nazına, nənəm.
Ürəyi süfrəydi, gözü toxuydu,
Sığal da çəkərdi azına nənəm.

Gecədən... yağan qar yolu bağladı,
Hardan bu qar gəldi, bu sazaq gəldi.
Nənəm köç edəndə yer, göy ağladı,
İlk dəfə anama yazığım gəldi.

İtmərəm dumanda, nə də çəndə mən,
Qəlbimin işığı yoluma düşür.
Hər dəfə anamı düşünəndə mən
Nənəmlə anamın ruhu görüşür.

29.10.2021

## ALNIMIN QIRIŞI – QƏBRİSTAN YOLU

Çalınır, gecikən ümid zəngidi,
Yorulub, hər kəsi qoruyan canım.
Saçların ağlığı ölüm rəngidi,
Elə bil ağacdı quruyan canım.

Sözüm yox, verdiyin məndən alana,
Bəsdi yerdən, göydən bəhrələnməyim.
Çətin budaqlarım tumurcuqlana,
Qaldı qiyamətə pöhrələnməyim.

Ömrümün hər günü qəm, kədər dolu,
Açılmaz nə qönçəm, nə butam daha.
Alnımın qırışı qəbristan yolu,
Özüm öz çiynimdə tabutam daha.

09.09.2019

## TİTRƏYƏN MİSRALAR...

Sevmək qoy heç kəsə gəlməsin asan,
Səndən xeyli vaxtdı xəbər yox, gözəl.
Səni düşünürəm, görən hardasan?
Qayğısız bir axşam, səhər yox, gözəl.

Bəlkə də baxtımda bitən çiçəksən,
Nə qədər ömrüm var, səninçün əsim.
Mən axı bilmirəm nə deyəcəksən,
Məgər yaş o yaşdı yolunu kəsim?

Sinəmə sancılan ox tapılacaq,
Canımdan ruhumu atmalıyammı?
Qınayan, inciyən çox tapılacaq,
Bir sevgi vəkili tutmalıyammı?

Ürəyim girovdu həsrət əlində,
Gərək yeri, göyü çevirəm dedi.
Sənə ürək açdım şeir dilində,
Titrəyən misralar "sevirəm" dedi.

01.04.2021

**GÖRÜNÜR...**

Ürəyim, gəl gedək zəhər içməyə,
Bu gözəl dünyadan bir gün köçməyə.
Daha cəsarətim çatmır keçməyə,
Mənə dayaz çay da ümman görünür.

Doyumluq olmadı aşım deyəsən,
Tərpənib yerindən daşım, deyəsən.
Yol kəsən qaçaqdı yaşım, deyəsən,
Nə ümid, nə də ki, güman görünür.

İşim nə Quranlıq, nə ayəlikdi,
Uşağa dönmüşəm, ta dayəlikdi.
Gözümün işığı kirayəlikdi,
Hara baxıramsa, duman görünür.

Xoşum gəlmir kimsə deyir, "yüz yaşa",
Güzgüyə baxıram, halım tamaşa.
Üşüyən sevgimlə ruhum baş-başa,
Ömrümün qürubu yaman görünür.

03.11.2021

## SƏNƏ YAS SAXLASAM

Səhər bağa girdim, qanım qaraldı,
Kökündən qopmuşdu heyva ağacı.
Elə bil ruhumu boran, qar aldı,
Neyləyim, ay mənim başımın tacı.

Nə deyim, xətrimə dəyən küləyə?
Üzümü üzündən necə çevirim?
Hər dəfə qəddimi əyən küləyə
Məgər atasıyam nəsihət verim?

Töküb göz yaşını ömrünü yazan,
Alnına yazını yazanda belə.
Ağlına gəlməzdi yıxılacaqsan,
Bir kimsə yuxunu yozanda belə.

Nəyi dəyişərəm, hay-haray çəksəm,
Çətin ki, ovuda hər avaz məni.
Sənə yas saxlasam, göz yaşı töksəm,
Görəsən doğmalar qınamaz məni?

Ürəyim qəm dolu, çənim gözümdə,
Axı asan deyil bir gül bitirmək.

Özgəni demirəm, mənim gözümdə
Adam itirməkdi ağac itirmək.

22.10.2021

## BƏS KİM UÇACAQ?

Vermişəm qəlbimi yelə, bilirəm,
Ürəyim başımla cəngdə, savaşda.
Hamı mənə baxır, elə bilirəm,
Adam da görüşə gedər bu yaşda?

Mən səni hardasa görmüşəm, gözəl,
Elə bil nə vaxtsa biz görüşmüşük.
Mən də bir xəzələm, sən də bir xəzəl,
Ömrün payız çağı yerə düşmüşük.

Bir sevgi ocağı qalamaq çətin,
Necə pərvazlanıb eşqim uçacaq?
Hanı qanadları bu məhəbbətin?
Bizim yerimizə bəs kim uçacaq?

21.03.2019

www.kitabxana.net

**OLANI DESƏNİZ, BƏSİMDİ ELƏ**

Mən hara gedirəm, özüm bilirəm,
Heç kəs ürəyimin dayəsi deyil.
Səhvimi deyəni gözüm bilirəm,
Yazdığım Quranın ayəsi deyil.

Ünvanı göstərin, bir ad bildirin,
Sandığı, kisəsi hanı varımın?
Məni tənqid edin, irad bildirin
Yükü az olanda misralarımın.

Görən hara gedir buludlar, hara?
Bəlkə əsən külək səsimdi elə.
Ev yıxan tərifi qoyun kənara,
Olanı desəniz bəsimdi elə.

Səs verə bilmirəm hər gələn səsə,
Göylərdə uçurdum, atam olanda.
Yer tapa bilmirəm özümə nəsə,
Yarımçıq bir işim, xətam olanda.

Yaxşılıq, nə qədər varam, eylərəm,
Sözünü bir qəfil ölüm deməsə.

Ömrümü özümə haram eylərəm,
Ürəyim deyəni dilim deməsə.

**ÜRƏYİM...**

Qoymuşam arzumu bir küncə, neynim,
Tanrıdan xoş xəbər gəlincə, neynim.
Tamarzı qalmısan sevincə, neynim,
Hələ ki, nisgillə dolan, ürəyim.

Həsrətim çox çəkib gözümə pərdə,
Kədər qonaq kimi gəlib, gedər də.
Sən necə dözürsən bir dünya dərdə,
Sinəmdə yarpaq tək solan ürəyim?

Dərədə sel də var, çəndən savayı,
Sirrimi bilən yox, səndən savayı.
Kim səni duyacaq məndən savayı?
Anamsan, balanam, balan, ürəyim.

Sızlayan yaramı ovudacaqsan,
Uyuyan ruhumu oyadacaqsan.
De, nə vaxt sinəmə qayıdacaqsan,
Mənim Qarabağda qalan ürəyim,
Ay Yetim Cinnidə talan ürəyim.

21.03.2020

## MƏNƏ YER ELƏ

Bağıma baxsanız, hər cürə var tut,
Kölgəsi adama necə həyandı.
Tumurcuq-tumurcuq qaralır xar tut,
Yuxudan hamıdan gec oyanandı.

Əlimə tikanın batıran narın
Qaçırda bilmərəm yuxusunu mən.
Nərgiz mürgüləyir içində qarın,
Alıram səhərlər qoxusunu mən.

Təbiət şəkildi, şəkil oyana,
Baharda bağçanı, bağı seyr elə.
Bənövşə, bir az da çəkil o yana,
Qoy bitim yanında, mənə yer elə.

23.04.2020

## MƏNƏ MƏLHƏM VERİN

Bal kimi sözümdən doyacaqdınsa,
Çay kimi qəlbinə axmayaydım heç.
Məni yarı yolda qoyacaqdınsa,
Kaş sənin qarşına çıxmayaydım heç.

Səhər açılacaq, səhərə nə var,
Dan yeri, nə bilir qaranlıq nədi.
Xoşuma gəlmədi bu gələn bahar,
Ümidin ağacı bar gətirmədi.

Yetişməz hayıma uzaq, yaxın da,
Bəlkə də güləcək yamanlar mənə.
Danışdı ömrümün ahıl çağında
Həsrət nağılını gümanlar mənə.

Hicrana bələnən ömür yoludu,
Mənə məlhəm verin, yarama qoyum.
Gözüm də, könlüm də qəmlə doludu,
Bu təzə dərdimi harama qoyum?

25.10.2020

## ŞƏHƏR UŞAĞI

Torpağın üstündə gəzmisənmi heç?
Ayağın yanıbmı, şəhər uşağı?
Qızıl zəmiləri süzmüsənmi heç,
Gedib yığmısanmı səhər başağı?

Nə bulaq görmüsən, nə də ki, meşə,
Dağda şəlaləni seyr etmisənmi?
Buludlar gələndə göydə döş-döşə
Şimşəyin səsini eşitmisənmi?

Əzəldən nazını çəkibdir hamı,
Sənə toxunmayıb barmaq ucu da.
Ləzzətli təamı, dadlı təamı
Hər gün hazır gördün soyuducuda.

Şütüyür maşının belədən-belə,
Küçələr, döngələr sənə dar gəlir.
Təki barmağınla işarə elə,
Yanına gör neçə havadar gəlir.

Səndə haradandı bu əda, “qürur”?
Mən bu harınlığa mat qalmışam, mat.

Sənin yaşıdların səngərdə durur,
Düşmənlə üz-üzə, əldə avtomat.

18.02.2019

# QƏRİB DUYĞU

Necə uzaq düşüm axı şəhərdən?
Küçəsi, döngəsi, tini xatirə.
Dağları yuxuda görürəm hərdən,
Dumanı xatirə, çəni xatirə.

Köçüb gözlərimə dağların yolu,
Zirvə yada düşür, keyfim durulur.
Baharda, payızda içi sel dolu
Sandıq dərələri unutmaq olur?

Ürəyim tuş gəlib giley oxuna,
Biri demədi ki, qolunda güc var.
Götür bu dağları vur qoltuğuna,
Gedəndə özünlə şəhərə apar.

28.01.2020

## BİR TƏQAÜDÇÜYƏ

Qəm qəmin üstünə gəlir elə bil,
Görürəm sevincin azaldığını.
Ürəyə yox demək yaşamaq deyil,
Mənə deməyəydin kaş aldığını.

Qalmayıb əvvəlki daha qol-qanad,
Hamı elə bilir cibin doludu.
Harana çatacaq iki yüz manat?
Bu suyun, işığın, qazın puludu.

Ümidsiz olanda əsir dizlərin,
Neçə-neçə arzun havada qalır.
Bazara çıxanda, hərdən gözlərin
Gah narda, gah da ki, heyvada qalır.

Ehtiyac içində gözün yol çəkir,
Ruzu bəxş eləməz hər öyüd sənə.
Əlimdə imkanım olsaydı əgər,
Özümdən verərdim təqaüd sənə.

25.06.2019

## SÖZÜM

Ağlama, ürəyim para-paradı,
Nə deyim, gözünün yaşına, sözüm.
Axı görürsən ki, qanım qaradı,
Necə sığal çəkim başına, sözüm.

Olmusan dəryada ümid yelkənim,
Bəzən bədsifətlər yoranda məni.
Alsa da qayğılar vaxtımı mənim
Sən atıb getmədin bir an da məni.

Çəkəndə sınağa dəyanətimi,
Durna qanadında lələyim oldun.
Görsən də arada xəyanətimi
Sədaqət, etibar mələyim oldun.

Demə ki, qəlbimin titrəməsi yox,
Sinəm həsrətindən dağım-dağımdı.
Səni unutmağım, heç bir kəsi yox,
Özümün-özümü unutmağımdı.

15.10.2020

## ŞIXƏKƏRAN, ANA KƏNDİM

Neçə igid görüb, neçə mərd görüb,
Qeyrətin Günəştək od saçdığı kənd.
Mənə uçmaq üçün qol-qanad verib,
Anamın dünyaya göz açdığı kənd.

Səni düşünmüşəm qışda, qarda mən,
Könlümdən keçəni duymadın, neynim.
Axtardım sevgimi uzaqlarda mən,
Mənə bir gözəli qıymadın, neynim.

Qəlbimdə boğmuşam yaz həvəsimi,
Həsrətin yandırıb odunda məni.
Cığırlar unudub ayaq səsimi,
Bulaqlar saxlamaz yadında məni.

Bəzən basır məni xəcalət təri,
Qələmdi, varağdı yarağım indi.
Şəhərə dəyişdim biçənəkləri,
Pas atıb dəryazım, orağım indi.

Məndən ürək istə, gecə gətirim,
Başımı sinənə qoyum, a kəndim.

Mən sənə ucalıq necə gətirim?
Boyundan kiçikdi boyum, a kəndim.

09.04.2020

# MƏNİ ÖLDÜRƏCƏK

Düz yolda ömrümü vermişəm yelə,
Yatıb ürəyimdə arzum, niyyətim.
Tanrının mənimlə işi yox hələ,
Məni öldürəcək səmimiyyətim.

Qapıma gələni boş qaytarmıram,
Elə bilirəm ki, cibim görünür.
Sevmirəm kiminsə qəlbini qıram,
Lal axan bir çayam, dibim görünür.

Dərdimə-sərimə hanı yananım?
"Sən danış səmimi, kiri səmimi".
Üzümə gülənə necə inanım?
Üç nəfərdən biri qeyri-səmimi.

20.10.2018

**QIŞ**

Buludlar yol alıb hayana axır?
Lal sükut bürüyüb bağı-bağçanı,
Hələ ki şıdırğı yağışlar yağır,
Axı adın qışdı, bəs qarın hanı?

Solub gül kolları, sanki yumağdı,
Külək cana yığıb boş yuvaları.
Baxıram, budaqlar yamaq-yamaqdı,
Darıxır kimsəsiz quş yuvaları.

Ağrılar, acılar duman, çən kimi,
Soyuğa, şaxtaya dözmək çətindi.
Uşaq anasını gözləyən kimi,
Ağaclar baharı gözləyir indi.

22.05.2020

## ƏRİK AĞACI...

Hər səhər dayanıb baxıram sənə,
Nə gözəl boyun var, ərik ağacı.
Necə də doğmasan, əzizsən mənə,
Gəl bir az dərdləşək, ay ağac bacı.

Köçünü dağlara aparıb ayaz,
Sənə səhər-axşam neçə göz baxır.
Qoy gedim üzərrik yandırım bir az,
Tanrı xəbərsizdi bəd gözdən axı.

Doyunca boylanım, baxım barına,
Gözlərin yoldadır, yay da keçəcək.
Payız elçi düşüb yarpaqlarına,
Bir azdan torpağa gəlin köçəcək.

23.10.2020

## DƏRD SƏRHƏD TANIMIR

Düşməyib payıma bir bəxtəvər gün,
Qayğısız axşamım, səhərim olmur.
Qapıdan qovuram dərdimi hər gün,
Girir pəncərədən, xəbərim olmur.

Dünyanın zəmisi ayrı biçimdə,
Ruzum qaçaq düşüb, çörəyim gəlmir.
Kirayənişindi kədər içimdə,
Küçəyə atmağa ürəyim gəlmir.

Odunda ha alış, ha yan, tanımır,
Elə bil üstünə göydən var gəlir.
Dərd sərhəd tanımır, ünvan tanımır,
Gələndə bir qucaq, bir xalvar gəlir.

Zəhmətim gedəndə hədərə, bəzən,
Əhvalım dəyişir, karıxıram mən.
Elə alışmışam kədərə, bəzən
Gəlib çıxmayanda darıxıram mən.

Hər payız dönürəm xəzələ, Tanrım,
Çağırın, harda var qəm-kədər gəlim.

www.kitabxana.net

Köhnələn ruhumu təzələ, Tanrım,
Gəlsəm, dərgahına təzə-tər gəlim.

16.10.2018

# ÖYRƏT ÖZ ƏLİNİ CİBİNƏ, OĞLUM

*Oğlum Fuada*

Ürəyim köklənib köç havasına,
Bir uzaq səfərə düşəcək yolum.
Alış bu dünyanın hər cəfasına,
Alış mənsizliyə, qoy rahat olum.

Çalış, ağa ağ de, qaraya qara,
Çörəyin olacaq olsan, səmimi.
Güman yerin olsun düşəndə dara,
Qışa azuqə yığ, qarışqa kimi.

İnci dərindədi, qızıl dərində,
Baş vur bu həyatın dibinə, oğlum.
Axtarma ruzunu yad ciblərində,
Öyrət öz əlini cibinə, oğlum.

Ağzını od eylə, bişir sözünü,
Hər kəsin yanında xətirin olsun.
Tamah yağışından gözlə özünü,
Gözünün toxluğu çətirin olsun.

www.kitabxana.net

Hər gün yaxşı əməl əkirəm, bala,
Yaxşılıq eyləsən, bil, üzü ağsan.
Nə vaxtdı dərdini çəkirəm, bala,
De, haçan özünə dost tapacaqsan?

Ürəyim köklənib köç havasına,
Bir uzaq səfərə düşəcək yolum.
Alış bu dünyanın hər cəfasına,
Alış mənsizliyə, qoy rahat olum.

12.10.2018

## ŞEİR OXUMAYIN...

Nəyiniz çatışmır, hər şeyiniz var,
İşdə rəhbərsiniz, evdə ərsiniz.
Şeir oxumayın, məmur adamlar,
Şeir oxusanız, kövrələrsiniz.

Dəyər üzünüzə misranın yeli,
Bir az özünüzü unudarsınız.
Ehtiyac əlindən lal olub dili,
Rəhm edib kasıba əl tutarsınız.

Demə məmur olmaq asandı, asan,
Məmurun ürəyi daş olmadı heç.
Gərək gecə-gündüz ayıq olasan,
Rüşvəti almağa baş olmadı heç.

Dərdi-səri olan qonum-qonşu var,
Qoy dərsin özgəsi, bara dəyməyin.
Gəlsə əskiyiniz, dünya dağılar,
Amandı, azalar, vara dəyməyin.

Nəyiniz çatışmır, hər şeyiniz var,
İşdə rəhbərsiniz, evdə ərsiniz.

www.kitabxana.net

Şeir oxumayın, məmur adamlar,
Şeir oxusanız, kövrələrsiniz.

04.01.2018

## ÖMRÜN QÜRUBU

Neyləyim, hamının üzü dönərmiş,
Laqeydlik yağışı yağır hər yanda.
Adamın gözündə həyat sönərmiş,
Bədən ağrıyanda, can ağrıyanda.

Arzular yerimir, sürünür daha,
Gözlərim nə vaxtdı işığa möhtac.
Ömrümün qürubu görünür daha,
Mən bir az torpağam, bir az da ağac.

Çoxunun əhd-peyman bağlamağı yox,
Adamlar bağlayıb daş ürəyinə.
Qəlbimin ümmantək çağlamağı yox,
Ürəyim bənzəyir quş ürəyinə.

Gözümü açandan qəm çəkirəm mən,
Qocalıq haradan tuşuma gəldi?
İndi havadan da nəm çəkirəm mən,
Ağlıma gəlməyən başıma gəldi.

Gecələr ulduzlar səsləyir məni,
Necə pərvazlanım, quş olum gedim?

www.kitabxana.net

Çəkilsin yolumdan həsrətin çəni,
Anamın ruhuna qoşulum, gedim.

221.02.2020

## BU AĞACIN...

Bu ağacın dərdi məni öldürər,
Solan yarpaq sarı yara qolunda.
Ölsəm mənə bu dünyanı güldürər ,
Adam ölməz axı ağac yolunda.

Nə desin ki, hikkəsinə yağışın?
Bahar eşqi ürəyində, huşunda.
Necə dözsün şaxtasına bu qışın?
Əsir soyuq küləklərin tuşunda.

Deməyin ki, bu ağacdan sənə nə?
Kaş biləydin səni necə duyuram.
Çıxardıram öz köksümdən sinənə
Gecə vaxtı ürəyimi qoyuram.

30.12.2018

www.kitabxana.net

# İSTƏK

Elə istəyirəm coşum, çağlayım,
Sözdən naxış-naxış xalı toxuyum.
Küçədən keçəni tutub saxlayım,
Deyim dinlə, sənə şeir oxuyum.

Dönüm uğultuya sel qanadında,
Hər daşı, qayanı oyub aparım.
Keçim dərələrdən yel qanadında,
Dağları ovcuma qoyub aparım.

Duyğular qoymur ki, alım dincimi,
Kövrək ürəklərdə qəm az olaydı.
Mən şeir yazanda kaş sevincimi
Ölçməyi bacaran cihaz olaydı.

Yağsın söz yağışı, sinəmə dolsun,
Razıyam “var”ımdan, “gəlhagəl”imdən.
İlahi, nəyim var, qoy sənin olsun,
Şeir yazmağımı alma əlimdən.

Elə istəyirəm coşum, çağlayım,
Sözdən naxış-naxış xalı toxuyum.

Küçədən keçəni tutub saxlayım,
Deyim dinlə, sənə şeir oxuyum.

20.12.2018

**SORUŞ**

Məndən soruşma ki, necəsən, ey dost?
Yaşımı bilirsən, yaşımdan soruş.
Bu sərsəm dünyada nə çəkdiyimi
Görürsən ağarıb, başımdan soruş.

Hər səhər əlimi qaldırıb göyə,
Yalvardım Tanrıya sağ can ver deyə.
Niyə bar vermədi ümidim, niyə?
Kəsək ovxalanıb, daşımdan soruş.

Bitməsə, günahı dəndən soruşma,
Zirvənin dərdini çəndən soruşma.
Ana həsrətini məndən soruşma,
Gözümdən tökülən yaşımdan soruş.

11.02.2019

## GƏLDİM

Niyə soruşmursan balam, hardasan?
Bir vaxt qalam idin, qalam, hardasan?
Çörək itirənə yaşamaq asan,
Dünyanın dərdini çəkməyə gəldim.

Bu payız durnalar yenə köçərmi?
Ruhumun yanından uçub keçərmi?
Pislərin üzündən dünya cücərmir,
Yaxşılıq toxumun əkməyə gəldim.

Göydən ruzum gəlir, köməyim gəlir,
Nəyi deməmişəm, deməyim gəlir.
Deyəsən özümü sevməyim gəlir,
Gözümü əlimə dikməyə gəldim.

Sayılmaz başına düşən daşların,
Sildim göz yaşını gözü yaşların.
Görüb hikkəsini hirsli başların,
Ətəkdən daşları tökməyə gəldim.

Bezdirib şıdırğı yağışlar məni,
Tapmadı vaxtında naxışlar məni.

Tanrım, vətən, ana bağışlar məni,
Yanına boynumu bükməyə gəldim.
29.10.2021

## İLAHİ, ÇOX GÖRMƏ BU BAĞI MƏNƏ

Baharda nərgizin qoxusu gəlir,
Uçur səhər-axşam könlümün quşu.
Əzgil gül açanda yuxusu gəlir,
Heyvanın duruşu xanım duruşu.

Əncirə alınmaz qalam deyirəm,
Bu il bala verib, gərək ayıram.
Səhər gedib tuta salam deyirəm,
Budaq əllərini sığallayıram.

İnnabı sevmirəm barın xətrinə,
Ağamdı, bəyimdi əli belində.
Nə vaxtsa dəymişəm narın xətrinə,
Sancır hərdən məni tikan dilində.

Alma ağacı da məni unudub,
Varından yarınıb, gəlhagəlidi.
Yarpaq duvağını üzünə tutub,
Xurma elə bil ki, sarı gəlindi.

Ağrın mənə gəlsin zoğal, ağrıma,
Susun, görüm alça, badam nə deyir.

Elə ki, gilası basdım bağrıma,
Şaftalı qısqanır, ərik inciyir.

Yaşıllıq içində bəzən azıram,
Almaram, versələr lap dağı mənə.
Gecələr şerimi bağda yazıram,
İlahi, çox görmə bu bağı mənə.

21.11.2018

## BİR PAXILA

Uğurum çoxunun xoşuna gəlmir,
Həyama bürünüb ar eyləyirəm.
Paxıllıq küləyi dəyir üzümə,
Mən kimin yerini dar eyləyirəm?

Min “sağ ol” demişəm tutub əlimdən
Bir kimsə işimi yola verəndə.
Vallah, uşaq kimi sevinmişəm mən,
Qonşunun inəyi bala verəndə.

Bilmirsən hardasan, aç gözlərini,
Düşmüsən dövlətin düz ortasına.
Dikmisən yenə də ac gözlərini
Özgə toyuğunun yumurtasına.

25.11.2019

**ANAMIN ŞALI**

Bəzən inciyirəm özüm-özümdən,
Sən hardan biləsən halımı, ana.
Gərək qoruyaydım yaylığını mən,
Gərək saxlayaydım şalını, ana.

Səni məndən özgə kimdi ağlayan?
Bu dünya üzü boz, ölüm-itimdi.
Hanı darvazanı açıb-bağlayan?
Sənsiz həyət-baca daha yetimdi.

Özüm də bilmirəm dözürəm nəyə,
Saçını darayan darağın hanı?
Ot da gətirərdin ala inəyə,
Biçənək yerində, orağın hanı?

Vedrə pas atıbdı, kəndir yerində,
Doldurub quyunu kimdi itirən?
Qardaşım ev tikib təndir yerində,
Anamın təknəsi hardadır görən?

Bəzən inciyirəm özüm-özümdən,
Sən hardan biləsən halımı, ana.

Gərək qoruyaydım yaylığını mən,
Gərək saxlayaydım şalını, ana.

27.10.2019

**QAYIDIM**

Qazağa gəlmişəm, dedim bir gecə
İkinci Şıxlıda qalım, qayıdım.
Azalıb qəlbimin odu, atəşi,
Gözlərdən məhəbbət alım, qayıdım.

Unudum dünyanın hər dərd-qəmini,
Ziyarət eyləyim Misgər əmini.
Deyəsən tapmışam işin çəmini,
Qoyulsun zənbilə balım, qayıdım.

Darıxıb mənimçün cığır da, iz də,
Gözləyib yolumu dərə də, düz də.
Mənə doğmaların məzarı üstə
Dayanıb xəyala dalım, qayıdım.

Unutsam kimsəni, yadıma salın,
Vaxt-vədə yetişdi, salamat qalın.
Gedim görüşünə Barat Vüsalın,
Həsrətin sazını çalım, qayıdım.

25.10.2019

## AY QARAÇUXAM...

Qayğılı gəzirəm hər axşam, səhər,
Halı yox qulağı səsdə olanın.
Günü gün deyil ki, zəhərdi, zəhər,
Ömür-gün yoldaşı xəstə olanın.

Ayrı bir tam dadır çörəyim, suyum,
Yol tutub gedirik ömrün qışına.
Axı necə səni evdə tək qoyum
Səs verim kiminsə çağırışına?

Kədər ürəyimi sıxıb gedəndə,
İllərin toxuyam, doyub gedirəm.
Bəzən iş dalınca çıxıb gedəndə,
Qəlbimi yanında qoyub gedirəm.

Yara  var dayazdı, yara var, dərin,
Ömrümün yoluna duman, çən gəlir.
Bəxtəvər günlərin, gözəl günlərin
Hamısı adamın gözündən gəlir.

Anıb xoş günləri, gözüm yol çəkər,
Ruhuma qəm çöküb, elə bil yoxam.

www.kitabxana.net

Evimə bərəkət gəlirsə əgər,
Sənin üzündəndi, ay qaraçuxam.

21.06.2018

## BİR SÜPÜRGƏÇİ QADINA

Mənə əlini ver, öpüm əlindən,
Hər kəsin arzusu, kamı ayrıdı.
Çəkdiyin zəhmətə baş əyirəm mən,
Sənin çörəyinin tamı ayrıdı.

Dözümün dağ boyda, səbrinə əhsən,
Kədərin camından içirsən hər gün.
Ən gözəl müəllim, bəlkə özünsən,
Halallıq dərsini keçirsən hər gün.

Küçə süpürməkdən belin bükülür,
Örtürsən üzünü həyadan, bacım.
Hər səhər gözündən yuxu tökülür,
Günəşi yuxudan oyadan bacım.

Süpürmə, gözləsin qoy küçə, səki,
Qəlbimdən keçəni duydun görəsən?
Süpür adamların ürəyindəki
Qibtəni, həsədi, xəbisliyi sən.

06.09.2020

## GƏTİRMİŞƏM

*Qardaşım Məmmədin ad gününə*

Arzum quş kimidi, qonub gül üstə,
Gümanım mürgülü, ümid yol üstə.
Ürəyim köklənib sarıtel üstə,
Sinəmdə nəğməli saz gətirmişəm.

Həyat zülüm imiş başdan, ay qağa,
Çıxır çörəyimiz daşdan, ay qağa.
Mənim xoşum gəlmir qışdan, ay qağa,
Sənə gül-çiçəkli yaz gətirmişəm.

Həya gözləmişəm, öz arım olub,
Yaxşı dost, ətirli baharım olub.
Etibar, sədaqət şüarım olub,
Açıq alın, təmiz üz gətirmişəm.

Sözün hənirini duyduğum andan
Sözə vurulmuşam ürəkdən, candan.
İkinci Şıxlıdan, şair Qurbandan
Cığır gətirmişəm, iz gətirmişəm.

Ruhunu oxşasın çöl də, çəmən də,
Qayğılar salmasın səni kəməndə.
Hədiyyə gətirən sağ olsun, mən də
İlahi möcüzə, söz gətirmişəm.

## ƏZƏLDƏN ÜMİDİN ACIDI ÜRƏK

Ovunmaz dünyanın varını versən,
Dərdin yuvasıdı, içini görsən.
Sirrini, sözünü ona deyirsən,
Adama anadı, bacıdı ürək.

Dalınca getmişəm alın yazımın,
Ünvanı göylərdir, gələn ruzumun.
Neçə istəyimin, neçə arzumun,
Hissimin, duyğumun tacıdı ürək.

Çağlayan təbimi oxşayır elə,
Dünyanın yükünü daşıyır elə.
Çırpına-çırpına yaşayır elə,
Əzəldən ümidin acıdı ürək.

21.10.2017

**DANIŞ, SƏNƏ QULAQ ASIRAM HƏLƏ**

Təbin bir damladı, iddian ümman,
Nəzakət xətrinə susuram hələ.
Yerbəyer eyləyir hər şeyi zaman,
Danış, sənə qulaq asıram hələ.

Bircə misran da yox, açıla eynim,
Deyim ki, çay kimi aşıb-daşıram.
Hələ ki bir kəlmə demirəm, neynim?
Hələ də səbrimlə ayaqlaşıram.

Söz kəsib başları, qılınc yerinə,
Sözdən güc alıbdı hökmü gərdişin.
Adam özün qoymaz gülünc yerinə,
Yapışar qulpundan bildiyi işin.

Haqq yerin tapacaq, bu gün, ya sabah,
Bir də görərsən ki, tənhasan, təksən.
Əlindən gedəndə vəzifən, vallah,
Heç kəsin yadına düşməyəcəksən.

Qatmışam ruhumu qəlbin səsinə,
Ürəyim sığışıb ölçüyə, həddə.

www.kitabxana.net

Salınsın cinayət məcəlləsinə
Oxucu zövqünü korlayan maddə.

02.11.2021

## DÜNYAYA GƏLMİŞDİM, NİYƏ GEDİRƏM?

Başda qorusam da hörmət tacımı,
Bilinməz ünvanı ağrı-acımın.
Dərmişəm barını səbr ağacımın,
Heç kəs deyə bilməz küyə gedirəm.

Alan alsın ömrü qoy baha məndən,
Görən nə qalacaq sabaha məndən.
Döndərib üzünü yer daha məndən,
Göyün adamıyam, göyə gedirəm.

Əyildim yay kimi, "ay belim" dedim,
Çətin ki, dikələ tay belim, dedim.
Qarnıma vurana vay belim, dedim,
Tapmadım özümə yiyə, gedirəm.

Hər kəs öz sazını çaldı, hayıf ki,
Sükutun dili yox, laldı hayıf ki.
Sualım cavabsız qaldı, hayıf ki,
Dünyaya gəlmişdim, niyə gedirəm?

15.06.2020

www.kitabxana.net

## QÖNÇƏLƏRİN GÖYÇƏYİNƏ

Öz bağımın bağbanıyam mən özüm,
Gül kolunda neçə gül var, bilirəm.
Bağda keçir elə gecəm-gündüzüm,
Qönçə gülür, qışı bahar bilirəm.

Əsən külək, istəyin nə, qəsdin nə?
Görürsən ki, hələ sənə dözən var.
Damcı düşür çiçəklərin üstünə,
Payız yeli damcıları sığallar.

Səhər çağı açılanda qızılgül,
Duyduğumu ləçəyinə dedim mən.
Ürəyimin salam dolu sözünü
Qönçələrin göyçəyinə dedim mən.

11.01.2020

## OĞLUMA...

İnadın qəlbimi əzir deyirəm,
Ovcuma qoyurlar harda neyləsən.
Mir Mövsüm ağaya nəzir deyirəm,
Şerimin bir bəndin əzbər söyləsən.

Sənə noğul dedim, noğul, neyləyim,
Nə vaxtdı arzuma çata bilmirəm.
Səni atmaq olmur, oğul, neyləyim?
Nə də ki, bazarda sata bilmirəm.

Səhvlərin ox kimi batır gözümə,
Qayğılar içində keçir hər günüm.
Qulaq asmayanda mənim sözümə,
Ziyana düşürsən, başına dönüm.

Qaraldır qanını ehtiyac zəngi,
Qayğılı gəzirsən, yüklü gəzirsən.
Yadımdan çıxıbdır üzünün rəngi,
Saqqallı gəzirsən, tüklü gəzirsən.

İnadın qəlbimi əzir deyirəm,
Ovcuma qoyurlar harda neyləsən.

www.kitabxana.net

Mir Mövsüm ağaya nəzir deyirəm,
Şerimin bir bəndin əzbər söyləsən.

21.06.2019

## İYİRMİ YANVAR

Mərd vətən yolunda verər canını,
Kim saxlar zamanın bircə anını?
Küçəyə tökülən şəhid qanını
Ana tək yaladı iyirmi yanvar.

Bu dərd sağalmayan dərdə oxşadı,
Ürəkdə sevincin üzü qışadı.
Məzarlar yan-yana, qoşa-qoşadı,
Anadı, baladı iyirmi yanvar.

Gözlərə necə də qəm-qüssə çöküb,
Heç kəs ağlamasın,  göz yaşı töküb.
Şəhidlər canıyla, qanıyla tikib,
Alınmaz qaladı iyirmi yanvar.

Kükrəyən, çağlayan haqqın səsidi,
Ocaqdı, alovu xalqın bəsidi.
Tanrının keçdiyi qeyrət dərsidi,
Deməyin bəladı iyirmi yanvar.

Bu gün yas günüdü, toy inciməsin,
Kaman inciməsin, ney inciməsin.

www.kitabxana.net

Analar, bacılar qoy inciməsin,
Ağıdı, layladı iyirmi yanvar.

19.01.2020

## BEŞ MANAT

Beş manat pul tapdım səhər yerdə mən,
Əyilib götürmək ar gəldi mənə.
Elə bil tuş gəldim təzə dərdə mən,
Bir anlıq bu dünya dar gəldi mənə.

Görən hansı kasıb salıb əlindən?
Kündəsi küt gedib, düşüb təndirə.
Bəlkə boğulurmuş qayğı selində,
Sonuncu ümidi düşəndə yerə.

Əzəldən düzlükdü mənası ömrün,
Baxmadım, görmədim özgə varını.
Bir evin süfrəsi açılmaz bu gün,
Kimsə ac qoyacaq balalarını.

13.02.2018

www.kitabxana.net

## BİR YAŞIL ADA VAR HƏYƏT-BACADA

Baharın nəfəsi gedir dərinə,
Nərgiz gülümsəyib açır, görürəm.
Necə də bənzəyir biri-birinə,
Bir kolda nə qədər bacı görürəm.

Çiçəklər gömgöydü, ləçəklərsə tər,
Yaşıl cığırların keyfi durular.
Adam gözəlliyi gözünə təpər,
Adam gözəllikdən necə yorular.

Güllərin qoxusu bağda, bağçada,
Az qala ətirdən boğulur adam.
Bir yaşıl ada var həyət-bacada,
Baxdıqca təzədən doğulur adam.

25.03.2020

**AYRI ADAMLARIQ...**

Ayrı havalara oynayırıq biz,
Hissinə, duyğuna necə də yadam.
Gör heç bir qarışıb-qaynayırıq biz,
Sən ayrı adamsan, mən ayrı adam.

Adamlar nə yaman dəyişib belə,
Mənə quyu qazır üzümə gülən.
Necə sənin kimi yaşayım elə,
Sən çörək itirən, mən qədir bilən.

Səninlə danışmaq bir əzab, sürgün,
Mənə qaranlıqdı hələ sabahın.
Tərəzi gözünə qoyular bir gün
Mənim savabımla, sənin günahın.

18.12.2018

## QOYMARAM DİLƏNƏ, AC OLA BİRİ

Neçə qönçə gördüm gül kolunda mən,
Qoymur gələn payız, açıla biri.
Beşi açılmasa, dərd eləmərəm,
Gülə Günəş kimi, saçıla biri.

Ağacam, barımdan dərdim hər kəsə,
Qeyrətdən dərs dedi mərdim hər kəsə.
Mən ki, ürəyimi verdim hər kəsə,
Kaş elə başımda saç ola biri.

Yemədim, payımı qonağa çəkdim,
Demirəm kimsəni qınağa çəkdim.
İmtahan eylədim, sınağa çəkdim,
Görmədim başıma tac ola biri.

Bölərəm hamıyla xoş anım olsa,
Uçaram, halıma yananım olsa.
Tanrım, bilirsən ki, imkanım olsa,
Qoymaram dilənə, ac ola biri.

31.10.2021

## ÖMRÜN AYAZI

Gəzmişəm bəxtimi axşam, səhər də,
Qarşıma çıxaydın baharda, gözəl.
Biz ki, yaşamışıq eyni şəhərdə,
Mən harda olmuşam, sən harda, gözəl?

De, hansı bulağın suyun içmisən?
Gülübdür üzünə hansı göy çəmən?
Bəlkə də yanımdan ötüb keçmisən,
Baxmışam dalınca yana-yana mən.

Nə deyim, heç kəsi qınamaq olmur,
Bu da bir taledi, bu da bir yazı.
Sevgi havasına oynamaq olmur,
Üşüdür adamı ömrün ayazı.

29.05.2020

## SƏNSİZ KİMƏM AXI...

Nə vaxtdı uzağı görmürəm hərdən,
Gözümə ümidin qarası dəyib.
Elə bil günəmuzd yaşayıram mən,
Mənimlə qəlbimin arası dəyib.

Dərdimi, sərimi söyləyim kimə?
Baxmadım, ürəyim deyən tərəfə.
Sadəlövh olmaq da dərd imiş demə,
Getmişəm mənə daş dəyən tərəfə.

Özüm də bilmirəm nəymişəm elə,
Gündüz tapılmışam, gecə itmişəm.
Vaxt olub xətrinə dəymişəm elə,
Sənin sevmədiyin yerə getmişəm.

Səninlə ağayam, bəyəm axı mən,
Gəl yenə qaynayıb qarışaq, ürək.
Sənsiz kiməm axı, nəyəm axı mən?
Mənə əlini ver, barışaq, ürək.

22.10.2019

## DÜNYANIN

Yaram dərin, ha məlhəm qoy, ha sarı,
Daş-daş qopur ömrümüzün hasarı.
Üzündən də baha gəldi astarı,
Kimlər atdı mitilini, dünyanın.

Aclar yağlı tikə görüb azdılar,
Quyuları dərin-dərin qazdılar.
Dara çəkib ayağından asdılar,
Götürdülər kətilini, dünyanın.

Bəd xəbərlər yeri, göyü soldurub,
Nə dəyişib, ağa durub, qul durub.
Çəlləyinə qəm barıtı doldurub
Yandırdılar fitilini dünyanın.

Niyə sənə dar gəldi bu yer, adam?
Gedib göydə axtarırsan sirr, adam.
Tanrı əkib, tər töksə də hər adam
Əkə bilməz şitilini dünyanın.

Dərd gələndə gözü, könlü tox olduq,
Evdə qaldıq, küçələrdən yox olduq.

www.kitabxana.net

Qayğıların girdabında boğulduq,
Axır gördük it ilini dünyanın.

20.10.2019

## YOX...

Göyün yerə payı yağış,
Ömür bəxtdi, ömür naxış.
Xam torpağam, ürəyim xış,
Becərənim, əkənim yox.

Kəsən gərək göz yaşını,
Bu dünyanın savaşını.
Min ildi əlhəd daşını
Ətəyindən tökənim yox.

Bitməyən dəndə ölmüşəm,
Dumanda, çəndə ölmüşəm.
Anam köçəndə ölmüşəm,
Qəbrimə baş çəkənim yox.

15.05.2019

## BİLMƏRƏM

Qəlbin rahat olur yuvan olanda,
Haqq ayaq tutanda, divan olanda.
Yolu düz getmişəm cavan olanda,
Bu ahıl yaşımda aza bilmərəm.

Kasıbım inciyər, acım utanar,
Anamın əvəzi, bacım utanar.
Qar kimi ağaran saçım utanar,
Daha sevgi şeri yaza bilmərəm.

Bu günün sənindi, sabah özgənin,
Savab özünündü, günah özgənin.
Könlüm sevgi dolu, vallah, özgənin,
Ayağın altını qaza bilmərəm.

Soyuq su töküblər aşımın üstə,
Elə daş qoyublar daşımın üstə,
Tamah bayrağını başımın üstə
Acından ölsəm də, asa bilmərəm.

Kədərin üzündən xallanıb ömür,
Həyat nə şirindi, ballanıb ömür.

Tanrı qələmindən sallanıb ömür,
Çıxmaram, çıxaram yaza, bilmərəm.

20.05.2020

## GİLƏNARIM...

Səhər-səhər pişvazıma çıxanım,
Budaq-budaq əllərimi sıxanım,
Ürkək-ürkək gözlərimə baxanım,
Gilənarım, qoy alnından bir öpüm.

Bilirsən ki, üzü bozdu fələyin,
Hər budağın bir körpənin biləyi.
Qəm eləmə, kim sevir ki, küləyi,
Gilənarım, qoy alnından bir öpüm.

Qismətiylə barışanım, yat bir az,
Ulduz kimi sayrışanım, yat bir az,
Küləklərlə vuruşanım, yat bir az,
Gilənarım, qoy alnından bir öpüm.

17.04.2020

## YOLLARDA QALAN ÜRƏYİM

Səni düşünürəm, anıram yenə,
Sinəmdə döyünən ürək daş deyil.
Yol alıb gəlirəm qəbrin üstünə,
Yollar yorur məni, yaş o yaş deyil.

Yol boyu elə hey sızlayır ürək,
Duyğusuz nə kədər, nə də ah bilir.
Gedəndə Bakıdan Lənkəranadək
Mən nələr çəkirəm, bir Allah bilir.

Neynim, dolan deyil həsrət xurcunu,
Nə vaxtdır talandır, talan ürəyim.
Qaytara bilməyir ana borcunu
Mənimlə yollarda qalan ürəyim.

0509.2019

www.kitabxana.net

**BƏLA**

Yayda kölgəsində şənlik, toy olar,
Kökü dərindədir, belə soy olar.
Tanrının sevdiyi ucaboy olar,
Çinarın duruşu, başına bəla.

Hər işin yaxşısı, avandı mənim,
Ümidin, arzunun sapandı mənim.
Demə ki, ürəyim cavandı mənim,
Saçın bəyazlığı yaşına bəla.

Bərgüşad ürəyim, Həkəri Vətən,
Dönərəm yolunda nökərə, Vətən.
Ömrümdə deməzəm bir kərə, Vətən,
Gəlsin çınqılına, daşına bəla.

25.03.2020

## DAŞI TƏRƏZİYƏ DÜZ QOY MƏNİMLƏ

Nəyinsə xətrinə baş qatmamışam,
Dediyim doğrudu, sözüm həqiqət.
Mən hələ heç kəsi aldatmamışam,
Mayam həqiqətdi, özüm həqiqət.

Könlünü almışam bəzən adsızın,
Tanrıdan ona bir ad diləmişəm.
Yanımda nə işi istedadsızın?
Mən təbi olanı tərifləmişəm.

Tökmə ümü-küsü yollarım üstə,
Küssən, barışmağa üz qoy mənimlə.
Ölərəm düzlüyün qolları üstə,
Daşı tərəziyə düz qoy mənimlə.

Fikrin dumanında, çənində azdım,
Duyğular apardı ta hara məni.
Bilsəydim, şerini heç oxumazdım,
Elə bil göndərdin biyara məni.

22.03.2019

www.kitabxana.net

## TƏYYARƏDƏ TANRIMLA SÖHBƏT

Ulduzlu göylərin öz yaraşığı,
Yerə boylanıram gecə yarı mən.
Düşür gözlərimə Ayın işığı,
Ovcuma yığıram ulduzları mən.

Min yol var, yolunu seçib gedirəm,
Sənə sinəm dolu duam oxunsun.
Dərgahın yanından keçib gedirəm,
Əlim ətəyinə necə toxunsun?

Adamlar nə bilir içimdə nə var,
Kitab deyiləm ki, oxunam, Allah.
Ayağım altında qalıb buludlar,
Gör sənə nə qədər yaxınam, Allah.

Qəlbimdə istəyə, arzuya bir bax,
Bilirəm, səsimi eşidəcəksən.
Bəsdi göz yaşını tökdü Qarabağ,
Nə olar, başına bir sığal çəksən?

27.04.2019

## VƏTƏN

Yolunda çox görüb boran, ürəyim,
Sevginlə döyünür hər an, ürəyim.
Sinəmin altında vuran ürəyim,
Susmayan, danışan dilimsən, Vətən.

Sığmayır sinəmə ümman kədərim,
Dərdimi haraya, kimə göndərim?
Kəsilən başımsan, soyulan dərim,
Yadlara açılmaz əlimsən, Vətən.

Bir dağsan, zirvəndə bəyaz qar olsun,
Səni sevənlərdə düz ilqar olsun.
Dost bayram eyləsin, düşmən xar olsun,
Bədxaha, paxıla, ölümsən, Vətən.

Ömür boşa gedir, günü sayınca,
Nə vaxtdı ürəyim gülmür doyunca.
Balan Qarabağa qovuşmayınca,
Bükülən, qırılan belimsən, Vətən.

Yaxın da, uzaq da bilir nəyin var,
Neçə mərd övladın, ağan, bəyin var.

Bəzən vulkan kimi püskürməyin var,
Kim deyir yumşaqsan, həlimsən, Vətən?

Nə başın ağrısın, nə azar görüm,
Nə də ki, vədəsiz bir məzar görüm.
Sənin hər yanını laləzar görüm,
Gözümdə solmayan gülümsən, Vətən.

15.11.2019

## MİSRALARIN QATARI

Məni göylər çağırdı,
Yolum qüruba sarı.
Sinəmin üstən keçir
Misraların qatarı.

Buludlar ağ yuxudu,
Ay noğuldu, elə bil.
Ürəyimdə bir təzə
Söz doğuldu, elə bil.

Hər ulduz bir gül, çiçək,
Dərib qoxuyanı yox.
Gecə qara kitabdı,
Hələ oxuyanı yox.

10.11.2019

## KAŞ SÖZÜM KEÇƏYDİ, VƏZİR OLAYDIM

Mən axı nə qədər boynumu burum?
Bu sərsəm dünyada, bu gic dünyada.
İstədim mismarı divara vurum,
Axtarıb tapmadım çəkic, dünyada.

Söndürdü küt gedən kündəm təndiri,
Könlümdən keçənə əlim yetmədi.
Keçdi boğazıma həsrət kəndiri,
Neçə arzu əkdim, biri bitmədi.

Bəxt yatsa, oyanmaz, sən ha çabala,
Ömrümə qəm-kədər xoş gəldi, neynim.
Əlimi uzatdım dolu çuvala,
Ovcumdan utandım, boş gəldi, neynim.

Dumanlar bürüyər dağı, dərəni,
Min namərd, bəzən bir mərdi öldürər.
Əzrayıl öldürməz, öldürsə məni
Ürəyidaşların dərdi öldürər.

Düşməz “Şükür” sözü bir an dilimdən,
Bir kərə demədim nazir olaydım.

Neynirəm şah olmaq arzusunu mən?
Kaş sözüm keçəydi, vəzir olaydım.

Mən axı nə qədər boynumu burum?
Bu sərsəm dünyada, bu gic dünyada.
İstədim mismarı divara vurum,
Axtarıb tapmadım çəkic, dünyada.

20.12.2020

## QALMIŞIQ ƏLİNDƏ YARIMÇIQLARIN

Xeyirxah varıydı cibi görünən,
Bir-bir köç eylədi əziz adamlar.
Hanı bulaq kimi dibi görünən?
Ay kimi, Gün kimi təmiz adamlar?

Yanaqlar qızarıb çiyələk kimi,
Axmır alınlardan xəcalət təri.
Artır gündən-günə göbələk kimi
Mənsəb düşkünləri, var hərisləri.

Kasıb ölüb gedir, nə hənir, nə səs,
Varlı ehsanını aşıyla verir.
Bir vaxt kandarından əl çəkməyən kəs
Salamı verəndə başıyla verir.

Xəbislər dən kimi daşda da bitdi,
Görəsən hardandı bu qədər harın?
Bütöv adamların zamanı getdi,
Qalmışıq əlində yarımçıqların.

03.03.2019

## ÜRƏK HƏKİMİ

Yadıma salmayın gənclik çağını,
Məni anam kimi əzizləyər kim?
Görürəm ekranda çırpınmağını,
Mənə ürəyimdən xəbər ver, həkim.

İllər yorğun salıb, kəsib heyini,
Dilə tut, bir dindir, gör nə deyəcək.
Mənə ömür boyu demədiyini
Kim bilir, bəlkə də sənə deyəcək.

İynə də vurdular ac damarıma,
Bir anlıq bilmədim, hardayam, harda.
Sən Allah, yaxşı bax tac damarıma,
Anamın həsrəti axırmı orda?

Salıb itirmişəm bəzən arımı,
Əyrini doğruyla göz-gözə qoyma.
Sayma səhvlərimi, günahlarımı,
Məni ürəyimlə üz-üzə qoyma.

28.07.2019

## RUHUM YANINDADIR

Gör nə vaxt köçübdür anam dünyadan,
İllərin soyuğu üşüdər məni.
Ayrıla bilmirəm hələ röyadan,
Yadıma düşəndə basır tər məni.

Həsrətin küləyi kəsir qəlbimi,
Sənin yoxluğuna necə dözürəm?
Elə ki, göynədir bir sirr qəlbimi,
Səni axtarıram, səni gəzirəm.

Sənsiz ömrüm-günüm özümə sürgün,
Heç kəs sənin kimi dadıma gəlmir.
Səni düşünürəm hər saat, hər gün,
Kimsəni düşünmək yadıma gəlmir.

Görəydim kaş bircə təbəssümünü,
Ümidin işığı nədən məndədir.
Mən də köç eylədim, sən köçən günü,
Ruhum yanındadır, bədən məndədir.

30.10.2019

# AĞLADIM

Sənsizlik ruhuma ixtiyar kimi
Çəkilib bir küncə ağlayıram mən.
Ürəyimə yağan yağışlar kimi
Dünyanın suları axır gözümdən.

Özümə həsrətin bitməz savaşı,
Sənin yoxluğunda, mən necə varam?
Qurumaz dünyada gözümün yaşı,
Sevinci qəlbimdən hər gün qovaram.

Bilmirəm hay-haray qopartdım, nədən?
Dünya xəzəl imiş,  xəzəl, ağladım.
Ana, qucaqladım məzarını mən,
Ömrümdə ilk dəfə gözəl ağladım.

26.12.2018

**BÜTÜN ANALARIN ANASI ANAM...**

Doğmadı sən keçən hər cığır, hər iz,
Mən səni anıram axşam, səhər də.
Bizim ana-bala görüşlərimiz
Qalıb yaddaşlarda, xatirələrdə.

Bir ömür yaxşılıq gəldi əlindən,
Kövrək ürəyinə ürək çatmadı.
Yadındadı, səndən pul istədim mən,
Dedin ki, gümanım qonşu Fatmadı.

Zəmi də biçərdin, dəryaz əlində,
Tənbəllər gəlməzdi xoşuna, ana.
Xətrini istərdi qız da, gəlin də,
Hamı and içərdi başına, ana.

Səsinə oxşayan bir səs tapmadım,
Ay mənim sonalar sonası, anam.
Sənə tay tapmadım, əvəz tapmadım,
Bütün anaların anası, anam.

21.08.2019

**BİR ŞAİRƏ**

Kasıblar oynamaz bəy havasına,
Nökərin olmadı, qulun olmadı.
Behləmə seçdiyin ayaqqabını
Bəlkə heç almağa pulun olmadı.

Gözlərin nə qədər bəd üz görəcək?
Üzülüb ürəyin, dərdə tabın yox.
Mələklər anana xəbər verəcək,
Ayağın yalındı, ayaqqabın yox.

Bir ömür kədərdən bac alan şair,
Gün gələr taleyin gülər üzünə.
İşə bax, sözüylə ucalan şair
Ayaqqabı ala bilmir özünə.

09.05.2019

## MƏNƏ BİR BİLET VER...

Arzular göyərməz, çəmən ki, deyil,
Nisgilim bir ümman, ömrümə çatar.
Ay ana, elə bil həmənki deyil
Məni görüşünə aparan qatar.

Hissim də, duyğum da gəlmir karıma,
Ürəyim deyəni ayağım demir.
Əl tuta bilmirəm doğmalarıma,
Mənə daha heç kəs "dayağım" demir.

Fikrimi çəkəmməz nə göy, nə də yer,
Dərd-sərim əriyən çənimlə gedir.
Biletsatan, mənə bir bilet də ver,
Anamın həsrəti mənimlə gedir.

29.06.2019

# YERİŞ ÖYRƏNƏCƏK DÜNYA TƏZƏDƏN

Əlim göydə idi hər axşam, səhər,
Deyirdim Tanrının gücü görünə.
Kaş elə bir cihaz kəşf eləyələr,
Baxanda adamın içi görünə.

Min əyri bir düzə başın əyəcək,
Qayıdar üzlərə həya təzədən.
Körpə uşaq kimi iməkləyəcək,
Yeriş öyrənəcək dünya təzədən.

Halallıq dünyanı bürüyüb gedər,
Göylərə ucalan min əl olacaq.
Paxıllıq dumanı əriyib gedər,
Həyat bundan sonra gözəl olacaq.

Bir Allah bəndəsi “mən acam”, deməz,
Mehriban olacaq yadlar, özgələr.
Hər yetən kasıbın haqqını yeməz,
Tərəzi gözündə mizan düz gələr.

30.10.2020

## YARPAQ DÜŞƏ BİLMƏZ, İZNİN OLMASA

Bir ömür öyrətdim aza qəlbimi,
Təknəm boş olanda, alışdım, Allah.
Özümü, sözümü tanıyan kimi
Sənin ətəyindən yapışdım, Allah.

Sənə duaçıyam, hər səhər, hər gün,
Süfrəmin ruzusu hardan gəlir bəs?
Sənin varlığını dərk etmək üçün
Qalın kitabları oxumaq əbəs.

Sevgindi adamı çıxaran yaza,
Bağımda hər gülü, çiçəyi görüm.
Yarpaq düşə bilməz iznin olmasa,
Bir kimsə yaratsın böcəyi, görüm.

21.12.2018

## ÜRƏYİMƏ BORCLUYAM

Günəşdi içimdə çətində, darda,
Bircə yol haqqını gətirməz dilə.
Tayı-bərabəri yox etibarda,
Yolumu salmışam ürəyimgilə.

Dərdini, yerinə göz deyib axı,
Nazını çəkən kim, sığaı verən kim.
Atalar bir gözəl söz deyib axı:
“Uşaq ağlamasa, qoğal verən kim?”

Vermişəm odundan dosta, yada mən,
Bəzən kor olmusan tüstümə, ürək.
Tək sənə borcluyam bu dünyada mən,
Hər gün borc yığıram üstümə, ürək.

09.02.2019

## DÜŞMƏZ BİR DƏ BAŞA QOYULAN PAPAQ

Bir qarış torpağın şəkərdi, baldı,
Sevinc var hamının üzündə, vətən.
Nisgilli günlərin arxada qaldı,
Bütövsən hər kəsin gözündə, Vətən.

Bir deyil, beş deyil bayram günləri,
Rahat nəfəs alsın qoy ana torpaq.
Axmaz alınlardan xəcalət təri,
Düşməz bir də başa qoyulan papaq.

Sənin də beləymiş yazın, qədərin,
Xətrinə dəyənlər qaçıb getdilər.
Durna qatarına döndü kədərin,
Başının üstündən uçub getdilər.

Dünya görməmişdi belə savaşı,
Kimdə qələbəyə güman olardı?
Otuz il gözlərdən tökülən yaşı
Bir yığan olsaydı, ümman olardı.

Qələbə ətirli min yarğanın var,
İgidlər səngərdə töyşüməz daha.

Sənin Şuşa boyda bir yorğanın var,
Ruhun qışda, qarda üşüməz daha.

25.10.2021

## QƏNİMƏT

Üşüdür canımı payız küləyi,
Daha ilim, ayım, günüm qənimət.
Ömrün qürubuna yol gedirəm mən,
Kimsəyə yetirsə ünüm, qənimət.

Şübhələr şimşək tək gözümdə çaxsa,
Ötəri duyğular qəlbimə axsa,
Qələmim, varağım utanacaqsa,
Sönən ocaq kimi sönüm, qənimət.

Mən aşıb-daşmışam dilimdən qabaq,
Ürəyim açılıb əlimdən qabaq.
Tanrım, mənə güc ver, ölümdən qabaq,
Vətənin başına dönüm, qənimət.

02.09.2019

## GEDİM

Oynadıq dost havasına,
Duraq nəyin davasına?
Xəyanətin yuvasına –
Gözlərinə baxım, gedim.

Çox sınayıb həyat məni,
Yuxudayam, oyat, məni.
Ürəyindən çıxart məni,
Ver küləyə, çıxım gedim.

Get tap üzü yolasını,
Yaxşısını, əlasını.
Qoy dostluğun qalasını
Öz əlimlə yıxım, gedim.

13.03.2019

# KİMİN DƏRDİ VARSA, VERSİN, DAŞIYIM

Doğru söz, bütöv söz çıxıb dilimdən
Yolumu, səmtimi tapandan bəri.
Əzəldən sevmirəm, sevməmişəm mən,
Saxta gülüşləri, təbəssümləri.

Özündən deyənə bənd olmamışam,
Könlümü vermişəm hər xoş niyyətə.
Tərif azarına tutulmamışam,
Qəlbim süfrə olub səmimiyyətə.

Heç vaxt düşməmişəm zirvə eşqinə,
Tanrı sevgisiylə baxmışam göyə.
Şükür eləmişəm hər keçən günə,
Sabahkı günüm də xoş keçsin deyə.

Kimin dərdi varsa, versin, daşıyım,
Yorulmaq bilmərəm axşam, səhər də.
Deyirəm, elə bir ömür yaşayım,
Qalsın dadı, tamı xatirələrdə.

20.10.2019

**MƏNİ**

İnləyən bir həzin neyəm,
Bilmirəm adamam, nəyəm?
Anam yox, dərdimi deyəm,
Bacım yox, ağlaya məni.

Gözün mənə baxa, dönə,
Gur çay kimi axa, dönə.
Kirpiklərin oxa dönə,
Sinəmdən oxlaya məni.

Nə tox oldum, nə də ki, ac,
Başım üstə qeyrətim tac.
Qəlbim, ruhum sözə möhtac,
Söz gərək saxlaya məni.

Mübarəkdir əzəl ölüm,
Yarpaq həyat, xəzəl ölüm.
Göydən gələn gözəl ölüm
Qəfildən haqlaya məni.

02.11.2021

## HƏLƏ Kİ...

Narahat deyiləm, təşvişim də yox,
Hədiyyə verən kim, bəxşişim də yox.
Mən düzəm, əyrilik bir işim də yox,
Məndən uzaqdadı qəfəs, hələ ki.

“Yaxşıyam”, demirəm belim bükülür,
Ömrümün sarayı çökür, sökülür.
Tanrım, ətəyindən ümid tökülür,
Şükür, gəlir-gedir nəfəs, hələ ki.

Tamın itirməyib aşım, deyəsən,
Sevgiyə qarışıb başım, deyəsən.
Ruhumdan utanır yaşım, deyəsən,
Sönməyib ürəkdə həvəs, hələ ki.

Yıxır daşı, damı külək, görürəm,
Durnam uçub gedir, lələk görürəm.
Mən hər gün çiynimdə mələk görürəm,
Mənə “yaşa” deyir bir səs, hələ ki.

## SƏSİNİN RƏNGİNİ UNUTMUŞAM MƏN

Həsrətin qəlbimdən asılan daş ki,
Mən necə sən keçən yolda duraydım?
Deyirəm, bir quşa dönəydim kaş ki,
Sənin ürəyində yuva quraydım.

Hicranın yolunu qurutmuşam mən,
Yenə yağacaqmış yağış, qar, demə.
Səsinin rəngini unutmuşam mən,
Bəzən ögey olur doğmalar, demə.

Ayıra bilmədim dostla düşməni,
Görən nimdaş ömrüm gedər neçəyə?
Bir gün ürəyindən çıxarıb məni
Kirayənişin tək atdın küçəyə.

15.09.2020

**SORUŞUN**

Görmədim bir kimsə keçə varından,
Əkdiyi ağacın şirin barından.
Zirvənin halını bəyaz qarından,
Dərənin keyfini seldən soruşun.

Ocaq sönər, başın qarışsa keyfə,
Bəzən ox atırsan, dəymir hədəfə.
Halbahal oluruq gündə min dəfə,
Ömür nələr çəkir, ildən soruşun.

Göylərdə qurulur sevgi divanı,
Hər kəsin ruhunda eşqin ünvanı.
Həsrətin gözündən axan yaş hanı?
Ürəkdə qırılan teldən soruşun.

Gərək göydən gələ bəxt də, naxış da,
Buludun haqqı var yağan yağışda.
Torpağın sirrini kotandan, xışdan,
Kətməndən soruşun, beldən soruşun.

Doğmalar qaynayıb qarışmadı heç,
Dünən küsən, bu gün barışmadı heç.

Söz ki, qəlibinə sığışmadı, heç,
Başın ağrısını dildən soruşun.

02.11.2021

## ANAMIN SÖZÜNDƏN ÇIXMADI TANRI

Baxıram, şər düşüb, gör nədi dağlar,
Ayağın altını görmədi dağlar.
Ayın nur haqqını vermədi dağlar,
Nə yaxşı dağları yıxmadı Tanrı.

Tamahlar qaranlıq mağara kimi,
Axı dərgahına çağıra kimi?
Qoymadı meydanda axıra kimi,
Zalımın əlini sıxmadı Tanrı.

Mübarək sığalın çəkə dünyaya,
Günahlar ləkədi, ləkə dünyaya.
Kim bilir, gəlməzdim bəlkə dünyaya,
Anamın sözündən çıxmadı Tanrı.

03.05.2019

## SUQOVUŞAN

***Hörmətli Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin "Suqovuşan" tarixi adının bərpa edilməsini onun öz dilindən eşidəndə təsirləndim...***

Əzəldən şad xəbər təşnəsiyəm mən,
Könlümdən keçənlər başıma gəldi.
Haqqın, ədalətin gur səsiyəm mən,
Otuz il keçsə də, tuşuma gəldi.

Şükür, bu günü də gördüm, ölmədim,
Aləmdi, ürəyə ümid dolanda.
Gecə sevincimdən yata bilmədim
Cəbrayıl düşməndən azad olanda.

Göylər əsirgəməz yağışın, qarın,
Torpaq əkiləcək, biçin başlayar.
Həsrətdən gözləri saralanların
Doğma yurdlarına köçü başlayar.

Qoyular hər əməl, hər iş yerinə,
Ürəklər dil açır, qəm sovuşanda.

www.kitabxana.net

Bir azdan dönəcək görüş yerinə,
Sevənlər görüşər "Suqovuşan"da.

Neçə arzusu var qəlbdə hərənin,
Yurduna dönənlər hallı gedəcək.
Açılar çöhrəsi dağın, dərənin,
Buludlar göylərdə "Yallı" gedəcək.

Alışır yenə də sönən sobamız,
Açılıb zamanın həqiqət gözü.
Sevincə bələnib bu el-obamız,
Vətən ətirlidir qələbə sözü.

08.10.2020

## KORONAVİRUS

Qənimət bilirik keçən hər günü,
Hamı öz evində çəkir sürgünü.
Dünya görməmişdi belə hörgünü,
Kədər qalasıdı koronavirus.

Aləm can üstədi, yarası dərin,
Siz Allah, deməyin harası dərin.
Göydə növbəsi var ana dərdlərin
Hələ balasıdı koronavirus.

Hər kəs bu bəlanın həyəcanında,
Gecə də, gündüz də qorxu canında.
Dünyanın qəmləri heçdi yanında,
Dərdin əlasıdı koronavirus.

Gözəgörünməzin ibrət dərsidi,
İnsanın insana həsrət dərsidi.
Bəndənin aldığı töhmət dərsidi,
Tanrı bəlasıdı koronavirus.

03.04.2020

**ANAMA...**

Qayğıyla açıram hər bir səhəri,
Ziyarət yerimdir sənin məzarın.
Nağıla dönmüsən köçəndən bəri,
Duymuşam dərdini anasızların.

Nə səsim, nə də ki ünüm yoxdu ki...
Necə yoxluğuna yanmayım, ana!
Elə bir saatım, günüm yoxdu ki,
Səni düşünməyim, anmayım, ana!

Şəkli həkk olunub məzar daşında,
Baxıram, özümə oxşayır anam.
Həsrəti sızlayır könlüm başında,
Daha daş ömrünü yaşayır anam.

12.03.2020

## KƏLBƏCƏR

Sən hardan yuxuma girdin bu gecə,
Axı görməmişəm səni, Kəlbəcər?
Tanrının izniylə əsgər qovacaq
Başından dumanı, çəni, Kəlbəcər.

Dərddən belə çələng hörməmişdim heç,
Həsrətin atını sürməmişdim, heç.
Dağları ağlayan görməmişdim heç,
Nə yaman kövrəltdin məni, Kəlbəcər.

Gözləri yoldadı obanın, elin,
Qeyrət qalasısan, əyilməz belin.
Sən dədə Şəmşirin, Adil Cəmilin
Əzəldən imanı, dini, Kəlbəcər.

İgidlər döyüşdə ərdi, ərəndi,
Biri on beşini yerə sərəndi.
Görürəm, yağılar pərən-pərəndi,
Şükür ki, gördüm o günü, Kəlbəcər.

01.10.2020

**KÖNLÜMÜN BARIDI NƏVƏ BAXIŞI**

Könlümün barıdı nəvə baxışı,
Qışda da gül açır çölüm-çəmənim.
Bitmir ki, nəvəmin sual yağışı,
Yağır səhər-axşam üstümə mənim.

Oyanır hər səhər çağı mənimlə,
Oynamaq istəyir, gülmək istəyir.
Gəzəndə bağçanı, bağı mənimlə
Hər gülün adını bilmək istəyir.

“Ata, darvazanı aç”, - deyir oğlum,
Bir boylan qapına ağa, xan gəlir.
“Kükərəyən selə bax, qaç”, - deyir oğlum,
Üzdə heç nə qoyma, ev yıxan gəlir.

Hay-haray qoparır ağrısa dişi,
Bəzən dolmağı var, bulud kimidi.
Gəlişi bayramdı, ancaq gedişi
Tufandan sonrakı sükut kimidi.

Sən Tanrının payı, sirli qalaçam,
Körpə ürəyində söz var, söhbət var.

Mənim ürəyimə damıb, balacam,
Məni sənə görə tanıyacaqlar.

05.06.2020

# NƏRGİZ

Ötüşdü sərt qışın azar-bezarı,
Nə əcəb gecikib, bəs hanı arı?
Ləçəyin bəmbəyaz, butan sapsarı,
Saplağın bir körpə barmağı, nərgiz.

Sənin pişvazına durub gəlmişəm,
Şaxtanı, çovğunu yorub gəlmişəm.
Qışdan əhvalını sorub gəlmişəm,
Unutdun halımı sormağı, nərgiz.

Tumurcuq-tumurcuq göyərir bahar,
Kolun çiçək-çiçək, kolun dolu bar.
Bənövşəyə de ki, ona sözüm var,
Tərgitsin boynunu burmağı, nərgiz.

06.02.2019

**KƏDƏR**

***Kədər ömürlərdən nə istəyir, nə?***

***Səyavuş Sərxanlı***

Canımı, ruhumu əzən görürəm,
Yol alıb yeriyən, gəzən görürəm.
Toyda da, yasda da bəzən görürəm
Məndən də qabağa keçirsən, kədər.

Sən mənim dalımca düşən yalquzaq,
Səninçün nə şaxta, nə qar, nə sazaq.
Qəlbi daş olandan uzaqsan, uzaq,
Ürəyi yumşağı seçirsən, kədər.

Min təzə dərd ola, çatmaz köhnəmə,
Yükün qəm yüküdü, ürək, göynəmə.
Qara zəli kimi çöküb sinəmə,
Acanda qanımı içirsən, kədər.

Hələ sönməmişəm, alovam, odam,
Kiminə doğmayam, kiminə yadam.

Zəmiyə bənzəyir payızda adam,
Əcəl dəryazınla biçirsən, kədər.

18.12.2019

## MİSRAM

Ulduz zəmisini biçib gedirəm,
Buludu sağıram, içib gedirəm.
Gecənin içindən keçib gedirəm,
Körpüdü axşamdan səhərə misram.

Soyuqda oduyla isinirəm mən,
Gah dağa çıxıram, gah enirəm mən.
Təzəsin tapanda sevinirəm mən,
Dönür boğazımda qəhərə misram.

Bilmirəm ümidi haçan görmüşəm,
Nə vaxt görmüşəmsə, qaçan görmüşəm.
Baharda duyğumu açan görmüşəm,
Demə, hamiləymiş bəhərə misram.

26.08.2019

## METRODA

Bu nə möcüzəydi başıma gəldi,
Döndü sevincimdən ürəyim dağa.
Qız, ədəb-ərkanın xoşuma gəldi,
Məni görən kimi durdun ayağa.

Hər kəs bilir eybin öz övladının,
Bu hansı əsrdi, ildi görəsən?
Bir ata, bir ana qız övladının
Böyük olmağını bildi görəsən?

Nəcib əməlinə başımı əydim,
Ömrümə bir ömür calandı bu gün.
Sənin ünvanını kaş öyrənəydim,
Atana, anana baş əymək üçün.

10.10.2019

## SAYĞAC

Güdaza kasıbı, fəhləsi gedir,
Çağlayan dənizdi pulu ciblərin.
Görən gözü yoxdu, zəhləsi gedir,
İçiboş ciblərdən dolu ciblərin.

Kim deyir yad quşa yuva verməyin,
Başını aşağı salacaq hamı.
Heç kəsə havayı hava verməyin,
Satın balonlarda alacaq hamı.

Artırın işığı, qazı, suyu siz,
Çörək baha olsun, məni ac qoyun.
Belə zirəksiniz, belə cəldsiniz,
Gedin Günəşdə də bir sayğac qoyun.

30.11.2019

## DİLİNİ ŞİRİN EYLƏ

Dilin zəhərdi axı,
Kim qapını açar, qız?
Sözüm ağzımda qaldı,
Dinləməyi bacar, qız.

Unutma ki, həyatda
Həya da var, ar da var.
Kənardan bax özünə,
Görən səndən harda var?

Ömür axır çay kimi,
Zaman səni qınadı.
Dilini şirin eylə,
Yaşıdların anadı.

15.08.2019

# QUŞ ÖLÜMÜ HAQQINDA İKİ ŞEİR

1

Ümid yox gözünün axan yaşında,
Bəlkə də havada ölüb gəlmisən.
Niyə oturmusan hovuz başında,
Məni qəlbi yumşaq bilib gəlmisən?

Doldu ürəyimə qəm yığın-yığın,
Kədərli baxışın qəlbimi sıxıb.
Elə bil yapışıb yerə ayağın,
Uçmağa qanadın yadından çıxıb.

Bir ürkək inam var üzündə sanki,
De görüm, inandın axı nəyimə?
Vəsiyyət oxunur gözündə sanki,
Yandım quş dilini bilməməyimə.

Körpəcə ürəyin nanə yarpağı,
Gözlərin deyir ki, bu da axırım.
Bilmirəm, səninçün neyləyim axı,
Bəlkə bir təcili yardım çağırım?!

www.kitabxana.net

2

Demə ki, duymadım halını sənin,
Başının üstündə çəni görmədim.
Dolaşıb gələndə bağçanı, bağı,
Əvvəlki yerində səni görmədim.

Sarılıb boynuna ölüm hörümçək,
Koronavirusdu batan günaha.
Kövrəldim hovuzda nəşini görcək,
Ömrün puçluğunu gördüm bir daha.

Atmısan özünü əcəl toruna,
Qəsd edib canına, neylədin quşum?
Dözməyib dünyanın əzablarına
Bəlkə də intihar eylədin, quşum.

24.11.2020

## XOŞ GƏLDİN DE

Bir misranın hənirinə oyandım,
Qələm götür, kağız götür, yaz dedi.
Bir gözələm, pişvazına çıxmışam,
Cilvələnib eyləməyim naz, dedi?

Xo gəldin de, ruhuna su səpənə,
Gözəlliyi gözlərinə təpənə.
Kəpənəyəm... bir uçan ağ kəpənək,
Dediyindən heç doymadım, az dedi.

Bir az sonra nə olacaq, kim bilir?
Nə yatmısan, qoy dolsun təb zənbili.
Nə yaxşı ki, oyatdın mən tənbəli,
Gileyini, iradını düz dedi.

Ay qoyursan, gün qoyursan yolumda,
Çarpan ürək, qan qoyursan yolumda.
Sən ki belə can qoyursan yolumda,
Ucaldacaq axır səni söz, dedi.

13.03.2020

## XƏBƏRİN VARMI?

Ləyaqət qoymuşam adın üstünə,
Getmərəm çörəyə yadın üstünə.
Mən ki, su tökmüşəm odun üstünə,
Bir üzüyoladan xəbərin varmı?

Məndən uzaq gəzir xoşuma gələn,
Hələ ki həsrətdi tuşuma gələn.
Başına gəlməsin başıma gələn,
Ağrıdan, bəladan xəbərin varmı?

Anam yox, bəs kimin balasıyam mən?
Kədəri satsalar, alasıyam mən.
Deyirdin dostluğun qalasıyam mən,
Hanı, o qaladan xəbərin varmı?

22.11.2019

## QƏBİR DAŞINA YARAŞAN MİSRALAR

Sənsiz kaş biləydin necə çətindi,
Buluda dönürəm gözüm dolanda.
De görüm, qayğına kim qalır indi?
Üstünü kim örtür soyuq olanda?

Ağlına gəlməzdi, gəlməzdi müdam,
Bir gün düşəcəkdir dərdə, azara.
Bu boyda dünyaya sığmayan adam,
De, necə sığmısan o dar məzara?

Salmışdım yolumu dumana, çənə,
Görə bilməmişdim sabahlarımı.
Qoynunu anatək açıbdır mənə,
Torpaq bağışlayıb günahlarımı.

Yaman üşüyürəm şaxtada, qarda,
Bəlkə canım qıza, yazda deyirəm.
Nə vaxtdan gözlərim qalıb yollarda,
Sağ olsun oğul da, qız da deyirəm.

İnsanın qanadsız quş olmağını
Ürək ağrısını çəkəndə bildim.

www.kitabxana.net

İşə bax, dünyanın boş olmağını
Əzrayıl sinəmə çökəndə bildim.

Halım yox, kiminsə dərdini çəkəm,
Sıxır ürəyimi bu sinə daşı.
Gedən yox, gələn yox, tənhayam, təkəm,
Bir də lal sükutdu burda sirdaşım.

Yas tutub ağlasın qoy göy də, yer də,
Saflıq sarayıydı, imarət idi.
İşi özgələri düşünmək, bir də,
Yaxşılıq etməkdən ibarət idi.

## ÖMÜR QOZ AĞACIYMIŞ

Üzdü hər günü, ayı,
Ürəyimin harayı.
Arzuların sarayı
Necə söküldü, getdi.

Kimə gərək boş adım?
Əridi daş inadım.
Qırıldı quş qanadım,
Belim büküldü, getdi.

Demə, dünya acıymış,
Kədər qəlbin tacıymış.
Ömür qoz ağacıymış,
Çırpdım, töküldü, getdi.

25.10.2019

## AY GÖYLƏRİN QULUDU

Ay göylərin quludu,
Bir işıq, nur yoludu.
Qucaqlasam, buludu,
Qucağıma sığarmı?

Günəş qönçə, göy ləçək,
Nə gözəldi, nə göyçək.
Hər ulduz bir tər çiçək,
Əlim çatsa, yığarmı?

Xoşdu varın axışı,
Hərənin bir naxışı.
Yağsa ruzu yağışı
Üstümə də yağarmı?

Qızılgül niyə solub,
Külək saçını yolub.
Ümidim Günəş olub,
Görən bir də doğarmı?

21.10.2019

# OLMAZ

İki gözün bir ordu,
Həm işıqdı, həm nurdu.
Qara deyil, qonurdu,
O gözdən olmaz, olmaz.

Görən yerə sərilər,
Bar kimidi, dərilər.
Ölü görsə, dirilər,
O gözdən olmaz, olmaz.

Giləsində arı var,
Bəyaz-bəyaz qarı var.
Deməyin oxşarı var,
O gözdən olmaz, olmaz.

15.06.2020

## MƏN DƏNİZİ SEVMƏDİM Kİ...

Bəxtsizi bir an aparır,
Hər gün neçə can aparır.
Anaları qan aparır,
Mən dənizi sevmədim ki...

Hər dalğası yüyənsiz at,
Yalmanına başın qoy, yat.
Bitən deyil bu batabat,
Mən dənizi sevmədim ki...

Cəlladların lal dilidir,
Edamların kətilidir.
Müşfiqimin qatilidir,
Mən dənizi sevmədim ki...

21.09.2016

## YARALI QUŞA

Ümid işığıdı gözündə sönən,
Demə halın məni yandırıb-yaxmır.
Budaqdan-budağa qonurdun dünən,
Bu gün qanadların sözünə baxmır.

Sirrini kim bilər gülən səhərin?
Ömrün gah qarası, gah da ağı var.
Ayağı torpaqdan üzülənlərin
Nə vaxtsa torpağa qayıtmağı var.

22.02.2019

**ÖMRÜ**

Kamana vuruldum, sazdan doymadım,
Yayda isinmədim, yazdan doymadım.
Mən çoxu görmədim, azdan doymadım,
Vermişəm şaxtaya, ayaza ömrü.

Hər keçən xoş günüm simuzər kimi,
Dünya kimə gümüş, kimə zər kimi.
Səhvlərim alnımdan axır tər kimi,
İlahi təzədən kaş yaza ömrü.

Bəxti bəd adamın əla yazıldı,
Yaxşının baxtına bəla yazıldı.
Dərinin quyusu dərin qazıldı,
Hədiyyə verdilər dayaza ömrü.

Hələ də qönçəyəm, gül açmamışam,
Bir körpə uşağam, dil açmamışam.
Dilənçi deyiləm, əl açmamışam,
Tanrım, neyləyirdim bu qısa ömrü?

23.04.2020

## ÇOXDU, ÇOX

Yıxılan çinardı, yanan vələsdi,
Hər gün ev yıxmağa qaçdı, tələsdi.
Dedilər bir baş kəs, beşini kəsdi,
Qəlbi daş olanın payı çoxdu, çox.

Sönən ocağımdı, qalan külümdü,
Saralan yarpağım, solan gülümdü.
Arxasız adamın işi zülümdü,
Arxalı adamda dayı çoxdu, çox.

Tanrının verdiyi paya baxmadım,
Ümman təşnəsiyəm, çaya baxmadım.
Mən ulduzlara baxdım, Aya baxmadım,
Aya baxanların sayı çoxdu, çox.

Susar, ürəyinə yara düşəndə,
Arzusu borana, qara düşəndə.
Mərdin səsi çıxmaz dara düşəndə,
Namərdin harayı, hayı çoxdu, çox.

22.05.2020

**TANRIMA**

Sənsən neçə yatmış baxtı oyadan,
Ruzunu kəsən də, göndərən də sən.
Çiçək bititrirsən daşda, qayada,
Yarpağı xəzələ döndərən də sən.

Eh, hardan biləydi illər neynədi,
Qayğılar içində keçdi qış, bahar.
Şəklinə baxanda qəlbim göynədi,
Hanı o boy-buxun, o qara saçlar?

Şəninə tərifdir dövlətim, varım,
Hələ görünməsin ömrün qürubu.
Bir deyil, beş deyil möcüzən, Tanrım,
Qaytar gəncliyinə Musa Yaqubu.

25.04.2019

## NƏ YAXŞI

Kiməsə xoş sözü zorla deyirik,
Neçəsi özüylə tə`nə aparıb.
Az qala hamımız xorla deyirik:
Axı bu dünyadan kim nə aparıb?

Dil yox, istəkləri qoy ürək desin,
Qiymət vermişəmmi əməyinə mən?
Ehtiyac içində boğulan kəsin
Nə vaxt  tələsmişəm köməyinə mən?

Ürəyi gen olan, xeyirxah olan
Bir gözəl, qaşları çatma varıydı.
Dar gündə adamın qeydinə qalan
Nə yaxşı, qonşumuz Fatma varıydı.

25.11.2019

## BƏZƏN ANAM GEYƏN DONU GƏZİRƏM

Hələ də əllərim sənə sarıdı,
Yurd salıb içimdə həyəcan, təlaş.
Ömür yoldaşımın yeri ayrıdı,
Üzümə qapını sən açaydın, kaş.

Yox oldun xoş günün röyası kimi,
İtirdim ömrünün qışında səni.
Bir ruzu, bərəkət dünyası kimi
Görəydim süfrəmin başında səni.

Zəmi istəyimi biçib getmisən,
Görüşə bilmirik, yağış, dolu var.
Mənim ürəyimdən keçib getmisən,
Qəlbimdən qəlbinə həsrət yolu var.

Bəzən anam geyən donu gəzirəm,
Görmüşəm Tanrının yetirdiyini.
Dünyadan köçəndən onu gəzirəm,
Kaş hamı tapaydı itirdiyini.

26.05.2020

## ÖMRÜM, YAŞIM...

Ruhumu oxşayır ilhamın dəmi,
Neçə dağ aşıram, dərə keçirəm.
Qələmim oraqdı, varağım zəmi,
Mən şeir yazmıram, zəmi biçirəm.

Saxlayım oyunda üz ağlığımı,
Gedim oynamağa, uşaq yığmağa.
Vurub qoltuğuma uşaqlığımı,
Gedirəm yenə də başaq yığmağa.

Uzanım çəməndə, açım qolumu,
Azalsın kədərim, qəmim bir az da.
Saçımın ağlığı kəsib yolumu,
Qoymur kənd çayında çimim bir az da.

Qohumlar yığışsın yenə başıma,
Hamısı qayğılı, qəm-kədər yüklü.
Uşaqlıq dostlarım çıxa qarşıma,
Saqqalı ağarmış, üzləri tüklü.

Ömrün qürubunda xallanıb ürək,
Qocalıq çiynimdə, qarışıb başım.

Arzu budağından sallanıb ürək,
Başıma bəladı, eh, yaşım, yaşım.

21.06.2020

## MƏNİM YAZI MASAM

Təpəri olmasa, diz nəyə gərək?
Elə bilirəm ki, gənclik çağımdır.
Stol nəyə gərək, miz nəyə gərək,
Mənim yazı masam mənim bağımdır.

Bağım bağ deyil ki, meşədi, meşə,
Yazıram şerimi sevə-sevə mən.
Qoymuram kündə tək təndirə düşə,
Misra daşıyıram bağdan evə mən.

Ətri könül oxşar, səxavəti bol,
İlahi sevgiylə doludu bəlkə.
Hər səhər getdiyim, gəldiyim bu yol
Dünyanın ən gözəl yoludu, bəlkə.

20.04.2020

## KOTAN DA VƏTƏNDİ, XIŞ DA VƏTƏNDİ

Çəkmə qəlbindəki arzunu önə,
Əzəldən yuxarı başda Vətəndi.
Qurbanam dağına, hər meşəsinə,
Kəsək də Vətəndi, daş da Vətəndi.

Cənnətə düşəcək yolunda ölən,
Varını, yoxunu onunla bölən.
Bu ana torpağın dilini bilən
Kotan da Vətəndi, xış da Vətəndi.

Göylərdən tökülən yağış varımız,
Ruzi, bərəkətdi dağda qarımız.
Çoxalsın hər yerdə aydınlarımız,
Düşünən beyin də, baş da Vətəndi.

28.05.2020

## GETDİ...

Ortaya qoyardı hamı varını,
Şipşirin  qoğallar bişirən hanı?
Kəndə qar yağanda kənd yollarını
Qardan təmizləyən kişilər hanı?

Çətinə düşəndə bir olardılar,
Məclis qurardılar qoçaq nənələr.
İşıq olardılar, nur olardılar,
Hanı od nənələr, ocaq nənələr?

Bayrama dönərdi hər gələn bahar,
Adamlar saf idi, adamlar duru.
Xəbər gətirərdi bizə axşamlar
Qonşumuz Məsmənin televizoru.

Açırdıq süfrə tək ürəyimizi,
İşi zülüm idi qəlbi kövrəyin.
Ətri məst edərdi uzaqdan bizi
Təndirdə anamın isti çörəyi.

Cavanlar vaxtı boş ötürməzdilər,
Dərə də aşdılar, dağ da yardılar.

www.kitabxana.net

Uşağı qucağa götürməzdilər,
Oğullar atadan utanardılar.

Süfrələr bəzənir haramla dolu,
Hardadır halallıq qazanı, getdi.
Adamlar tamahın nökəri, qulu,
Pozuldu dünyanın mizanı, getdi.

Xəstəxana şeirləri silsiləsindən

## TANRI PIÇILTILARI

Heç kimsən, heç nəsən, bəndəm, görürsən,
Aləm bir-birinə dəydi bir anda.
Yonur adamları rəndəm, görürsən,
Mən yaddan çıxanda, unudulanda.

Bilirəm, dilindən düşməyir adım,
Çatır dərgahıma duaların da.
Sevginlə açılır qolum-qanadım,
Nə yaxşı gözün yox dünya varında.

Ələ əsa götür, gəz dərviş kimi,
Danış hər görənə kəramətimdən.
Bir də görürsən ki, bir bəxşiş kimi
Koma saray olur, səxavətimdən.

Heç kəs sinəsinə döyməsin, mənəm,
"Mən" necə "mən" olar mən eləməsəm?
Sən ha de "hamıdan xoşbəxtəm, şənəm",
Bəxtəvər bir ömür-gün diləməsəm.
27.07.2019

## XƏSTƏXANA KİTABI

Nə vaxtdı qəlbimdə şübhələr bitir,
Bilmirəm neyləyim həyəcanımdan.
Hardasan, ay ana, özünü yetir,
Ağrımı, acımı götür canımdan.

Ağrıdır ağrının oxu gecələr,
Ana, gəl laylay çal mənə, yatanda.
Ərşə çəkilərdi yuxun gecələr,
Mənim ayağıma tikan batanda.

Dəhliz mənə ögey, mən ona yadam,
Bəxtini Tanrıdan diləyir xəstə.
Bir dar çarpayıya sığmayan adam
Nə qədər uzansın arxası üstə?

Sevinc yox, kədərdi dolan qəlbimə,
Ağrılar dünyanı salıb gözümdən.
Oxumalıyammış bu payız deme,
Ömrün xəstəxana kitabını mən.

08.10.2019

# İLAHİ...

Sənin dərgahında gördüm özümü,
Hamıdan bəxtəvər mənəm, ilahi.
Nə gözəl hiss imiş ucalıq hissi,
Elə bil dağlara tənəm, ilahi.

Kim deyir yox olub itəcəyəm mən?
Hələ bülbül kimi ötəcəyəm mən.
Qayada, daşda da bitəcəyəm mən,
At məni torpağa, dənəm, ilahi.

Göy çəmən olaram, ömrüm yaz olsa,
Təzə dərd taparam, dərdim az olsa.
Mənə ürəyində sevgin azalsa,
Dağılar çadırım, binəm, ilahi.

Haqq üçün ağladım, gözlərimdə nəm,
Axı bilirsən ki, halal bəndənəm.
Mən sənin yerdəki nümayəndənəm,
Qoyma ocaq kimi sönəm, ilahi.

12.10,2019

## MƏN SƏNİN ADINI DEYİB GƏLMİŞƏM

*Məşhur uroloq, professor Xaqani Hüseynova*

Başımı Tanrıya əyib gəlmişəm,
Həkimlər dünyanın yaraşığıdı.
Mən sənin adını deyib gəlmişəm,
Çarəm əllərinin gur işığıdı.

Üzümdə, gözümdə gördün təşvişi,
Bədən ağrıyanda duyğular solar.
Çəkdiyin zəhməti, gördüyün işi
Mənə halal eylə, həkim, nə olar.

Qılı qıldan seçib, tükü görürəm,
Qəlbində yeri var toxun, acın da.
Çiynimə qoyduğun yükü görürəm,
Artdı bu dünyada bir duaçın da.

Hər kəsin dilindən gəlsin xoş avaz,
Ağrı sonuncudu, zədə sonuncu.
Yaxşılıq qatarın sərhəd tanımaz,
Mən nə birinciyəm, nə də sonuncu.
10.10.2019

## ÖLÜMÜN RƏNGİ

Qəlbimdə daha yox gileyin yeri,
Demirəm bu dərddən zara gəlmişəm.
Tanrım, saya gəlməz möcüzələrin,
Hara gedəcəkdim, hara gəlmişəm.

Doğmalar nə bilsin başımda nə var,
Mənim bu halımı axı görən kim?
Sağımda, solumda ağxalatlılar,
Nəbzimi ölçən kim, dərman verən kim.

Çökdü boğazıma yenə də qəhər,
Necə də ağrıya mən sinə gərdim.
Ölümün rəngini gördüm bu səhər,
Kaş rəssam olaydım, rəngin çəkərdim.

28.07.2019

www.kitabxana.net

# VƏSİYYƏT

*Ömür-gün yoldaşıma*

Neyləyim, taleyim belə gətirdi,
Bənövşə boynunu bükmə, ürəyim!
Bir səhvim ömrümü üzdü, bitirdi,
Gözünün yaşını tökmə, ürəyim!

Nə vaxtdı ürəkdən deyib-gülmürəm,
Çölüm yaz kimidi, içimdə qışam.
Adam arasına çıxa bilmirəm,
Mən niyə bu qədər arıqlamışam?

Mən axı nə deyim yenə, dirəyim,
Daha nə ayağım, nə də qolum yox.
Necə ümid verim sənə, dirəyim?
"Əlvida" deməkdən ayrı yolum yox.

Doyunca baxmışam Günə, Aya mən,
Başsız çaylar kimi axıb gedirəm.
Əliboş gəlmişdim bu dünyaya mən,
Elə əliboş da çıxıb gedirəm.

30.07.2020

# MƏN HƏLƏ BİLMİRƏM

Dostlarım axtarar məni hər səhər,
Boş qalan, gəzdiyim küçə olacaq.
Yiyəsiz qalacaq bağda bar, bəhər,
Yarımçıq işlərim necə olacaq?

Mən hələ bilmirəm bu yol nə yoldur,
Tanrıdır atanın hər an dayağı.
Oğlum, boş saxlama, hovuzu doldur,
Quşlar səhər-axşam su içir axı.

Bir də muğayat ol tut ağacından,
Kölgəsi mənimçün qoyma darıxsın.
Sula ağacları söküləndə dan,
Əl uzat, budaqlar əlini sıxsın.

28.07.2019

## SAÇIMI TUMARLASAYDIN

Demirəm göylərin gör nələri var,
Neçə istəyimi Tanrı göndərib.
Mənim dərdlərimin zirvələri var,
Başıma bəmbəyaz qarı göndərib.

Ömür ocağıdı sönən, ay ana,
Mən sənsiz ölmüşəm, ağlayanım yox.
Sirrin təknəsiydi sinən, ay ana,
Sözümü, sirrimi saxlayanım yox.

Gecələr dərdimi deyəndə Aya,
Dünyanı boz gördüm, sapsarı gördüm.
Ağrıdan düşəndə xəstəxanaya
Başımın üstündə yadları gördüm.

Min dəfə demişəm, yenə deyirəm:
Ölümdü, itimdi adı dünyanın.
Nə qədər dərd çəkər sinə, deyirəm,
Ana, sənsiz qaçıb dadı dünyanın.

Mənim xoş günümü, ayımı saydın,
Canım ağrısa da, üzübəriyəm.
Saçımı bir kərə tumarlasaydın,
Sanardım dünyanın bəxtəvəriyəm.

www.kitabxana.net

## MƏN ÖZÜM-ÖZÜMÜ ÇOX AĞLAMIŞAM

Çöp də ağır gəldi mənə bu dəfə,
Əllərim keyidi, qolum olmadı.
Hələ ki gedirəm işıq tərəfə,
Bəlkə heç geriyə yolum olmadı.

Kim bilir, bu da bir sınaqdı, bəlkə
Taleyi, baxtıyla barışan kəsə.
İstəmirəm kimsə əziyyət çəkə,
Deməyin hardayam, soruşan kəsə.

Görəndə bəd üzün dostun, sirdaşın,
Dəyib ürəyimə ox, ağlamışam.
Qoymayın bir kimsə töksün göz yaşı,
Mən özüm-özümü çox ağlamışam.

Bitişməz bir daha qırılan qanad,
Yaralı qəlbimi oy, görməsinlər.
Yanıma gəlməsin nə doğma, nə yad,
Saralmış üzümü qoy görməsinlər.

28.07.2019

## TİBB BACISIYLA SÖHBƏT

Üzündə təbəssüm çox olaydı kaş,
Görəydim sevincdən gözlərin gülür.
De görüm, çatırmı aldığın maaş?
Dayanma kədərli, boynubükülü.

Sən Allah, nə olar, danış səmimi,
Süfrəyə nə qoyub, nə götürürsən?
Tale qarğışına düşənlər kimi,
Bəzən ah çəkirsən, köks ötürürsən.

Qayğılı baxışın qəlbimi sıxır,
Ümid toxumunu əkirəm, bacı.
Az qala öz dərdim yadımdan çıxır,
Sənin də dərdini çəkirəm, bacı.

30.07.2019

**BİLMİRƏM**

İnləyən qəlbimin simiyəm, Allah!
Kədərim saraydı, himiyəm, Allah!
Sərsəri küləklər kimiyəm, Allah!
Hayana əsirəm, özüm bilmirəm.

İşim gözlərimin yaşını silmək,
Məndən qaçaq düşüb sevinib-gülmək.
Nə yaşamaq olur, nə də ki, ölmək,
Necə bu ağrıya dözüm, bilmirəm.

Bağlandı bəsarət, özüm də yatdım,
Hansı istəyimə, arzuma çatdım?
Ömrümü, günümü odlara atdım,
Bəlkə də kor imiş gözüm, bilmirəm.

Ömür budağında hərəmizləlik,
Deyirdim əlimə alaram çəlik.
Görən bir misralıq, bir xatirəlik
Qalarmı cığırım, izim, bilmirəm.

26.02.2020

## İNSAN OĞLU, AXIR GÖRDÜN HEÇ KİMSƏN

Səhər-axşam hey özünü öyürdün,
"Dağam" deyib çox sinənə döyürdün.
"Yer də mənəm, göy də mənəm" deyirdin,
İnsan oğlu, axır gördün heç kimsən.

Dünya itib dumanların içində,
Yaxşı neynər yamanların içində?
Arzuların, gümanların içində
İnsan oğlu, axır gördün heç kimsən.

Tamah saldın nəfəsinə quşun da,
Zəhər qatdın həvəsinə quşun da.
Uçmurdunmu əvəzinə quşun da?
İnsan oğlu, axır gördün heç kimsən.

Sən Tanrının dərgahına baş əydin,
Xalvar-xalvar günahına baş əydin.
Gec də olsa, allahına baş əydin,
İnsan oğlu, axır gördün heç kimsən.

22.06.2020

www.kitabxana.net

## AĞRIMIN RƏNGİ

Ağrım qara daşdı, gərək götürüm,
Sənə necə deyim, haramı ağla.
Bu uzun gecəni necə ötürüm?
Ana, yanıma gəl, yaramı ağla.

Niyə kəsilibdir heyim, bilmirəm,
Gecə tibb bacısın bəlkə yormayım?
Mən necə həkimə deyim, bilmirəm,
Mənə bir iynə vur, yatım, durmayım?

Balımın üstünə zəhər tökülür,
Həyatın dadını aparır ağrı.
Qamətim əyilir, belim bükülür,
Məni sevincimdən qoparır ağrı.

Dünyada hər şeyin adı var, axı,
Ağrımın rəngini görüb gedəydim.
Kaş iki ürəyim olaydı mənim,
Birini ağrıya verib gedəydim.

13.06.2020

## ALÇA AĞACINA

Ürəyim ağrıdı mənim bu gecə,
Çırpıram üstündən qarını sənin.
Günümü sayıram, qarlı qış keçə,
Necə gözləyirəm barını sənin.

Bir azdan quruyar gözünün nəmi,
Gəlir qulağına səsi baharın.
Hər biri sərçənin dimdiyi kimi,
Gözümü oxşayır tumurcuqların.

Yaz gəlib, get yaşıl libasını gey,
Bələnsin sevincə yenə ömür-gün.
Özün mənə doğma, budağın ögey,
Mənə əl vermədi, görüşmək üçün.

23.04.2020

# MÜƏLLİF HAQQINDA

Lənkəran rayonunun Şıxəkəran kəndində anadan olub. İxtisası hüquqşünasdır. Uzun müddət hüquq-mühafizə orqanlarında rəhbər vəzifələrdə çalışıb. İstefada olan polis polkovnikidir. "Həsrətin ünvanı", "Kölgəm mənim yol yoldaşım" və "Mən səninlə barışmaram" şeir kitablarının müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Prezident mükafatçısıdır. "Ruhların sevinən günü" şairin oxucularla dördüncü görüşüdür.

Oxşayıb ruhumu dağ da, aran da,
Ümmanam, daşmışam, ləpələnmişəm.
Anam doğub məni Şıxəkəranda,
Mən Azərbaycana səpələnmişəm!